❒ № 38 (5799) 2023-cü il

# ŞƏRQ

Qiyməti 40 qəpik

Günəş Şərqdən doğur!

www.sherg.az 1 mart 2023-cü il (çərşənbə)

## Bayramlarla əlaqədar mart ayında 10 gün iş olmayacaq



**Mart ayında bayramlarla əlaqədar 10 gün iş olmayacaq.**

Martın 8-i Qadınlar günü kimi qeyd olunur və Qadınlar günü iş günü hesab edilməyən bayramlardandır.

Nazirlər Kabineti tərəfindən təsdiqlənən müvafiq qərara əsasən isə 2023-cü il martın 20, 21, 22, 23 və 24-ü Novruz bayramıdır.

2023-cü ildə 18, 19 və 25, 26 mart tarixləri şənbə və bazar günlərinə təsadüf edir. Beləliklə, gələn il Novruz bayramı ilə əlaqədar ardıcıl 9 gün iş olmayacaq.

*Başqa sözlə, mart ayında bayramlarla əlaqədar 10 gün iş olmayacaq.*

## Əfv Komissiyası 900-dən çox müraciətə baxıb

Komissiyanın növbəti iclası martın 7-də keçiriləcək



**Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb.

Bununla da iclaslarda baxılan məsələlərin sayı 900-ü ötüb.

*Komissiyanın növbəti iclası isə martın 7-də keçiriləcək.*

## 30 ilin ən gözəl fotosu



# Şərqi Zəngəzura qayıdış

Daha 10 ailə Ağalıya köçdü

**Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.**

Fevralın 28-də Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola salınan 10 ailədən ibarət növbəti köç karvanı Ağalı kəndinə çatıb. 30 ildən sonra Vətənə dönən zəngilanlıları Ağalı kəndində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov qarşılayıb. Doğma yurdlarına qayıdan zəngilanlılara Ağalı kəndində yaradılan şərait barədə məlumat verilib.

(səh.2)



# Azərbaycan üçtərəfli görüşə hazırdır

Ermənistan isə yekun razılıq verməyib



Lavrov: "Paşinyanın bəyanatını onun vicdanına buraxıram"

**"Azərbaycanla Rusiya arasında dostluq münasibətləri yüksələn tempdə inkişaf edib".**

Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla görüşündən sonra təşkil edilmiş mətbuat konfransı zamanı deyib. XİN başçısı bildirib ki, ötən il imzalanmış "müttəfiqlik qarşılıqlı fəaliyyəti" haqqında Bəyannamə 30 illik diplomatik münasibətlərin yüksək səviyyədə olmasını göstərir:

(səh.2)

## İslahatlar aparılmalıdır

"Mədəniyyət Nazirliyində elə işçilər var ki, işlədiyi işdən xəbəri yoxdur"

**"Gələcəkdə "Mədəni irs haqqında" qanun layihəsini hazırlayaraq təqdim etmək istəyirik".**

Bunu Milli Məclisin Mədəniyyət komitəsi ilə Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyinin təşkil etdiyi birgə ictimai dinləmələr zamanı mədəniyyət nazirinin birinci müavini Adil Kərimli deyib. O bildirib ki, "Mədəni irs haqqında" qanun layihəsi qeyri-maddi irsi də əhatə edəcək:

"Təqdim olunan layihə Azərbaycanda mədəni irsin qorunması üçün zəruridir. Hazırda mədəniyyət sahəsində təhlil mərhələsindən keçilir. Problemləri tapıb həll edirik. Mədəniyyət sahəsi hər zaman diqqətdədir. Ciddi addımlar da atılır. Mədəniyyət sahəsində Dövlət proqramı hazırlanacaq.

(səh.3)

## Ərdoğan söz verdi

Zəlzələ bölgəsində 3 və ya 4 mərtəbəli binalar tikiləcək



**"Bu günə qədər zəlzələ bölgəsindən ümumilikdə 20 min 300 vətəndaşımız təxliyə edilib".**

Bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı brifinqi zamanı deyib. Ərdoğan əlavə edib ki, bu rəqəmlərə öz rayon və kəndlərinə qayıdanlar, həmçinin qohumlarının yanına gedənlər aid deyil...

(səh.4)

# Bakıya axın daha da sürətlənib

Böyük şəhərlərdə əhali sıxlığının artmasına təbii proses kimi baxmaq olar, ancaq başqa səbəblər də var



**Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyi Bakıya qeyri-təbii axının olması, regionların boşalması və bunun yaratdığı problemlər, eləcə də prosesin qarşısının alınması ilə bağlı təkliflərlə çıxış edib.**

İctimai Birliyin bununla bağlı mətbuata açıqlamasında qeyd olunur ki, hazırda ən ciddi problemlərdən biri Bakıya axının davam etməsidir: "Ölkə ərazisinin 2,5 faizini təşkil edən paytaxt əhalinin 25 faizdən çoxunu özündə cəmləşdirib.

(səh.7)



## ABŞ rəsmisi Ermənistanın Azərbaycanla sərhədyanı ərazisində olub

**ABŞ Sərhəd Xidmətinin nümayəndəsi Ermənistanın Gürcüstan və Azərbaycanla sərhədyanı ərazilərində olub.**

"Report" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə ABŞ-ın Ermənistandakı Səfirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, nümayəndə İrəvanda "Zvartnos" hava limanına da baş çəkib.

Səfərin sərhəd təhlükəsizliyinin təmin edilməsi məsələlərində əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə həyata keçirildiyi bildirilib.

## Koronavirusdan 1 nəfər ölüb

33 yeni yoluxma qeydə alınıb




**Azərbaycanda koronavirusa 33 yeni yoluxma qeydə alınıb, 36 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Ölkədə indiyədək ümumilikdə 828 548 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 818 281 nəfər müalicə olunaraq sağalıb, 10 119 nəfər vəfat edib.

*Aktiv xəstə sayı 148 nəfərdir. Son gün ərzində 2 110, bu günədək isə 7 524 850 test aparılıb.*

## Təmirin üç il uzanması bəhanədir

Gəncəyə işləyirsə, digər rayonlara da qatar reyslərini açmaq olardı



**Qarşıdan Novruz bayramı gəlir.** Hər il bayram ərəfəsi rayonlara sərnişin axını artdığından Bakı Beynəlxalq Avtovağzal Kompleksində izdiham yaşanır. Sərnişinlər avtobusa bilet tapa bilmədiklərindən taksilərin xidmətindən yararlanmaq məcburiyyətində qalırlar.

Taksilər isə həmin ərəfədə qiyməti ikiqat bahalaşdırırlar. Qeyd edək ki, sərnişin qatarlarının ölkədaxili hərəkəti artıq üç ildir ki, məhdudlaşdırılıb. Hazırda sadəcə Bakı-Gəncə-Bakı reysi işləkdir. Vətəndaşlar rayonlara sərnişin qatarlarının olmamasından şikayətçidirlər.

(səh.4)



## 3 ildən sonra müəllimin 1000 manat maaşı heç nə olacaq

Nazir real artımlardan deyil, nominal artımlardan danışır

(səh.7)



## Zəlzələ ilə bağlı Azərbaycana ciddi təhlükə yoxdur

Ənvər Əliyev: "Ancaq bu bizi rahatlatmalı deyil"

(səh.5)



# İlham Əliyev Kubanın vitse-prezidentini qəbul edib

## "Azərbaycan-Kuba əməkdaşlığının inkişafı üçün böyük perspektivlər var"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

**"Report" xəbər verir ki, Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən zirvə görüşündə Kuba Prezidentinin iştirakını məmnunluqla xatırlayı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Kuba tərəfinə minnətdarlığını bildirib.**

Dövlətimizin başçısı Qoşulmama Hərəkatını daha da inkişaf etdirmək üçün səylərini bundan sonra da davam etdirəcəyini və ölkəmizin bu Hərəkatın beynəlxalq münasibətlərdə mühüm rol oynaması istiqamətində çalışdığını vurğulayıb və deyib ki, dünyada postkovid dövrü ilə bağlı geniş müzakirələrə ehtiyac var.

Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi bu il başa çatacaq və Azərbaycan 4 il ərzində sədr ölkə olaraq yaxşı irs qoyub. Dövlətimizin başçısı bu xüsusda təşkilatın təsisatlanması, onun parlament və gənclər şəbəkəsinin yaradılması və digər təşəbbüslərimizi qeyd edib.

Əməkdaşlığımızın inkişafı üçün böyük perspektivlərin olduğunu bildirən Prezident İlham Əliyev bunun səhiyyə sahəsində xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb, həmçinin turizm, təhsil, kənd təsərrüfatı, mədəniyyət, əczaçılıq kimi sahələrdə əlaqələri inkişaf etdirmək üçün imkanların olduğunu deyib.

Ölkələrimizin ənənəvi dostluq münasibətlərini, beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatında sıx əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı pandemiya dövründə kubalı həkim və tibb işçilərinin Azərbaycanda fəaliyyətinin yüksək qiymətləndirildiyini dedi, bu amilin ikitərəfli əlaqələrimizin inkişafına əsaslı töhfə verdiyini vurğulayıb.

Kubanın vitse-prezidentinin səfərinin münasibətlərimizin genişdirilməsinə əlavə təkan verəcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycana səfərin onda xoş təəssüratla yadda qalacağına əminliyini ifadə edib.

Qoşulmama Hərəkatının COVID 19-a qarşı mübarizə üzrə Təmas Qrupunun zirvə görüşündə iştiraka dəvətə və qəbula görə minnətdarlığını bildirən Salvador Antonio Valdes Mesa ilk növbədə Kuba Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş edib və onunla görüşünü məmnunluqla xatırladığını bildirib.

Qonaq ənənəvi dostluq münasibətlərimizin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Fidel Kastronun mühüm rol oynadıqlarını qeyd edib. O, bu il Ulu Öndərin anadan olmasının 100 illiyinin qeyd edildiyini xüsusi vurğulayıb.

Salvador Antonio Valdes Mesa ölkələrimiz arasında münasibətlərin daha da inkişafında Kuba tərəfinin də ciddi siyasi iradəsinin olduğunu deyib.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin Covid 19-a qarşı mübarizə kimi çətin bir dövrə təsadüf etdiyini, lakin ölkəmizin təşkilata çox fəal və uğurlu sədrliyini davam etdirdiyini deyən qonaq Qoşulmama Hərəkatının inkişafı üçün ölkəmizin böyük işlər gördüyünü, təşkilata üzv dövlətlərə dəstəyini əsirgəmədiyini xüsusi vurğuladı və buna görə təşəkkürünü bildirib.

Kubanın vitse-prezidenti deyib ki, beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimiz arasında sıx əlaqələr mövcuddur və Kubanın G77-nin sədri qismində əməkdaşlığımızı dərinləşdirmək və bu iki təsisat arasında münasibətlərin inkişafında maraqlı olduğunu, Cənub-Cənub əməkdaşlığının dərinləşməsi üçün çalışdığını qeyd edib.

Qonaq ölkəsinin illər ərzində blokadaya məruz qaldığını, amma Kuba xalqının mübarizə və azadlıq əzminin tükənmədiyini vurğulayıb, BMT Baş Assambleyasında Kuba ilə əlaqədar təqdim olunan qətnamələrə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. Dövlətimizin başçısı Azərbaycan və Kuba xalqlarının azadlıq uğrunda mübarizlik əzmlərinin oxşar cəhətlərdən olduğunu qeyd edib, xalqımızın işğal və təcavüzlə heç zaman barışmadığını, öz torpaqlarımızı 30 ilə yaxın davam edən işğaldan azad etdiyimizi diqqətə çatdırıb.

Prezident İlham Əliyev deyib ki, Kuba xalqı dünyaya sübut etdi ki, azadlıq uğrunda mübarizədə bütün məhrumiyyətlərə dözüb və bizim Qələbəmizdə də Kuba xalqında olduğu kimi, mübarizlik hissi mühüm rol oynayıb. Bu oxşarlıq isə xalqlarımızı bir birinə daha da bağlayır.

# Tarif Şurası 50 dərman vasitəsinin qiymətini təsdiq edib

**Tarif (qiymət) Şurasının 28 fevral 2023-cü il tarixində növbəti iclası keçirilib və müvafiq qərar qəbul edilib.**



Tarif Şurasının Katibliyi xəbər verir ki, iclasda yeni dövlət qeydiyyatına alınan 50 dərman vasitəsinin qiyməti təsdiq edilmiş və etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınmış 32 dərman vasitəsinin qiymətində Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydalara və Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli Qərarı ilə təsdiq edilmiş Təlimata uyğun olaraq dəyişikliklər olunub.

Ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiq edilmiş dərman vasitələrinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

Qərarla Tarif (qiymət) Şurasının rəsmi saytının (www.tariff.gov.az) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

# Şərqi Zəngəzura qayıdış

## Daha 10 ailə Ağalıya köçdü

**Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.**



Fevralın 28-də Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola salınan 10 ailədən ibarət növbəti köç karvanı Ağalı kəndinə çatıb. 30 ildən sonra Vətənə dönən zəngilanlıları Ağalı kəndində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov qarşılayıb. Doğma yurdlarına qayıdan zəngilanlılara Ağalı kəndində yaradılan şərait barədə məlumat verilib.

Qeyd edək ki, ümumilikdə, bu günə kimi "Böyük Qayıdış" çərçivəsində Zəngilanın Ağalı kəndinə 86 ailə, 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi daha ağır şəraitdə yaşayanlardır.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcəklər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışacaqlar. Köçürülmüş əhali üçün bütün infrastruktur şəraiti - dövlət xidmətləri, mərkəzi məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri mövcuddur. (Azərtac)

Köç prosesinin növbəti aylarda da davam edəcəyi planlaşdırılır.

# Azərbaycan üçtərəfli görüşə hazırdır

## Ermənistan isə yekun razılıq verməyib

**"Azərbaycanla Rusiya arasında dostluq münasibətləri yüksələn tempdə inkişaf edib". Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla görüşündən sonra təşkil edilmiş mətbuat konfransı zamanı deyib. XİN başçısı bildirib ki, ötən il imzalanmış "müttəfiqlik qarşılıqlı fəaliyyəti" haqqında Bəyannamə 30 illik diplomatik münasibətlərin yüksək səviyyədə olmasını göstərir:**

"Bununla yanaşı, ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin də təşkil olunması diplomatik əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verib və bu görüşlərdə yüksək dinamika müşahidə olunub. Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrdə də stabil və pozitiv dinamika görülür. Bu baxımdan, ötən il də yüksələn temp görüldü və biz ticarət dövriyyəsinin 34 faiz artmasının şahidi olduq və dövriyyə 4 milyard dollara çatıb. Diplomatik münasibətlərin qurulmasından keçən 30 il müddətində qarşılıqlı investisiya qoyuluşlarının həcmi 9 milyard dollara çatıb. Ticari-iqtisadi əlaqələrin inkişafına parlamentlərarası iqtisadi komissiyaların da fəaliyyəti və ötən il Bakıda baş tutan 20-ci yubiley iclas müsbət təsir göstərib".

**"Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasına mane olur"**

Ceyhun Bayramov deyib ki, Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasına mane olur: "Rusiyalı həmkarımla postmünaqişə dövrünə aid məsələlər müzakirə olundu. Ermənistanla sülh sazişinin imzalanması üçün görülən işlər barədə fikir mübadiləsi apardıq. Bu sazişin imzalanması üçün aktiv faza artıq arxada qalıb. Hazırda Ermənistan tərəfi sülh müqaviləsinin imzalanmasına mane olur və biz gördük ki, danışıqların 3-cü raundunda iştirakdan da imtina etdilər". C.Bayramov qeyd edib ki, Qarabağda əhalinin humanitar problemlərlə üzləşməməsi üçün lazımi addımlar atılır: "Azərbaycan tərəfinin mövqeyi məlumdur və qətidir. Biz ilk gündən demişik ki, vəziyyətin gərginləşməsinə qarşıyıq".

**Ceyhun Bayramov Ermənistanı danışıqları bərpa etməyə çağırıb**

Nazir bildirib ki, Ermənistan indi də görüşlərdən boyun qaçırır: "Biz öz növbəmizdə real nəticəyə köklənmişik. Hazırda, belə demək olarsa, onlayn danışıqlarla davam edirik və Sülh sazişi layihəsinə dair sənədlərin qarşı tərəfə göndərilməsi baş verir". XİN rəhbəri Ermənistan tərəfinin konstruktiv sülh danışıqlarına köklənmədiyini qeyd edib: "Ermənistan tərəfi bu mövqeyindən nə qədər tez əl çəkərək danışıqlar masasına geri dönərsə, bu da proses üçün bir o qədər faydalı olacaq".

XİN rəhbəri vurğulayıb ki, Ermənistan bütün məsuliyyəti Azərbaycan və Rusiyanın boynuna atmaq istəyirdi: "Ermənistan Laçın yolunun üçtərəfli bəyanatla müəyyən edildiyi humanitar statusunu pozub. Azərbaycan tərəfi iki il ərzində dəfələrlə bu dəhlizdən sui-istifadə hallarına dair həm bağlı kanallar vasitəsi ilə, həm də açıq şəkildə xəbərdarlıq edib. Təəssüf ki, bunun bir xeyri olmadı və vəziyyət etirazlara gətirib çıxardı. Ermənistan tərəfi isə məsələyə dair mövqeyini düzəltməkdən imtina edərək, baş nazir səviyyəsində onların bu məsələyə aidiyyətlərinin olmadığını bəyan etdi. Bununla da Ermənistan bütün məsuliyyəti Azərbaycan və Rusiyanın boynuna atmaq istəyirdi. Lakin Ermənistanın ziddiyyətli siyasəti bununla bitmir, məsələ ətrafında ajiotaj yaradaraq beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Azərbaycan tərəfinin mövqeyi dəqiqdir. Biz məsələnin ilk günündən bu ərazidə, xüsusən də Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi üçün hər hansı bir humanitar problemin yaranmaması üçün əlimizdən gələni edəcəyimizi bildirmişik. Bizim tələbimiz Azərbaycan vətəndaş cəmiyyətinin səsinin eşidilməsidir. Bütün çətinliklərə baxmayaraq, biz sülh gündəliyinin alternativinin olmadığının tərəfdarıyıq".




## Lavrov: "Paşinyanın bəyanatını onun vicdanına buraxıram"

Sergey Lavrov qeyd edib ki, Azərbaycan tərəfi üçtərəfli görüşə hazırdır, Ermənistan isə yekun razılıq verməyib: "Biz dəfələrlə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə görüşmək üçün meydança təqdim etmişik. O cümlədən ötən ilin dekabrında razılıq vardı ki, həmkarlarımızın Rusiya ərazisində növbəti görüşünü keçirək. Lavrov hadisələrin sonrakı inkişafını xatırlatdı. Erməni həmkarlarımız bu tədbirdə iştirak edə bilməyəcəklərini bildirdilər. Biz belə görüşü keçirməyə hazır olduğumuzu təsdiqlədik. Azərbaycan tərəfi də buna hazır olduğunu bildirib. Ermənistan tərəfi də buna etiraz eləmədiyini deyib, lakin hələlik yekun razılığı verməyib. Düşünmürəm ki, biz öz xidmətlərimizi təklif etməkdə təkid etməyəcəyik. Lakin bu təkliflər hər iki tərəfə yaxşı məlumdur".

**"Orada hansısa nəzarət-buraxılış məntəqələrinin yaradılmasına baxılmır"**

Sergey Lavrov Laçın yolunda nəzarət-buraxılış məntəqələrinin açılması təklifinə münasibət bildirib. Qeyd edib ki, Laçın yolunun rejimi və onun funksiyası ən birinci üçtərəfli bəyanata tam uyğun olmalıdır: "Bu isə o deməkdir ki, Laçın dəhlizindən istisnasız olaraq mülki və humanitar yüklərin və mülki vətəndaşlarının hərəkətinin təmin olunması vacibdir. Biz təmaslarımızda, hər şeydən öncə, sülhməramlı kontingentin xətti ilə buna nail olmağa çalışırıq. Orada hansısa nəzarət-buraxılış məntəqələrinin yaradılmasına baxılmır. Lakin dəhlizin təyinatı üzrə fəaliyyət göstərməməsi şübhəsini texniki vasitələrlə aradan qaldırmaq imkanı var. Biz bu gün buna toxunduq. Texniki detallar əhəmiyyətinə görə ikinci dərəcəlidir".

**"Avropa İttifaqı missiyası legitimlik nöqteyi-nəzərindən ciddi şübhə doğurur"**

Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistanda yerləşdirilən Avropa İttifaqı missiyasının legitimlik nöqteyi-nəzərindən ciddi şübhə doğurduğunu söyləyib: "Brüsseldən səslənən elanları detalları ilə şərh edə bilmərik. Biz Avropa İttifaqının Ermənistan və Azərbaycanla olan münasibətlərindən necə sui-istifadə etdiyini görürük. Ermənistanda yerləşdirilən Avropa İttifaqı missiyasının legitimlik nöqteyi-nəzərindən ciddi şübhə doğurduğunu görürük. O cümlədən onun funksiyası, mandatı, onun müddəti, bu missiyanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına göstərilən səylərə əlavə dəyər qatacağı çoxlu suallar doğurur. Lakin kimlərlə əməkdaşlıq edib-etməmək tərəflərin suveren seçimidir. Biz həm bugünkü danışıqlarda, həm də dünən Prezident İlham Əliyevlə danışıqlarda vurğuladıq ki, bütün fəaliyyətlərimizdə başlıca prinsip olan "ziyan vurmamaq", "yardım" prinsipini rəhbər tuturuq".

Rusiya xarici işlər naziri Ermənistan Baş naziri N.Paşinyanın məlum bəyanatını bütünlüklə Ermənistan rəhbərinin vicdanına buraxdığını qeyd edib: "Paşinyanın bəyanatını onun vicdanına buraxıram". Lavrov Bakıdan Naxçıvana dəmir yolu xəttinin tezliklə bərpa olacağına ümid edir: "Rusiya ümid edir ki, Rusiya, Ermənistan və Azərbaycanın üçtərəfli işçi qrupu tezliklə Azərbaycanın qərbi ilə Naxçıvan arasında nəqliyyat əlaqələrinin yaradılması ilə bağlı razılığa gələ biləcək".

**"SSRİ-nin yerində yaranan dövlətlərin sərhədləri ilə bağlı yazılanlara daha nəyi əlavə edəcəyimi bilmirəm"**

Sergey Lavrov qeyd edib ki, ötən il Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən imzalanan Praqa sənədində Almatı Bəyannaməsinə istinad edilib.

O, Almatı Bəyannaməsinin açıq sənəd olduğunu xatırladıb: "Orada nə yazıldığını oxumaq olar. Orada yazılıb ki, Sovet İttifaqının yerinə yaranan yeni dövlətlərin dövlət sərhədləri SSRİ çərçivəsində mövcud olan inzibati sərhədlərlə müəyyən olunacaq. Buna daha nəyi əlavə edəcəyimi bilmirəm".

**"3+3 formatı bizim diqqətimizdədir"**

**XİN başçısı bildirib ki, Rusiya Azərbaycanın işğaldan azad olunan ərazilərinin bərpa olunmasında aktiv iştirak etməyə hazırdır:** "Rusiyanın iqtisadi operatorları bundan sonra da Azərbaycanın ərazilərinin münaqişə sonrası bərpasında aktiv iştirak etməyə hazırdır".

S.Lavrov vurğulayıb ki, "3+3" formatı Moskvanın diqqətindədir: "İndiyədək 3+3 formatında yalnız bir görüş olub. Gürcüstan iştirakdan imtina edib, lakin biz Gürcüstan üçün qapını həmişə açıq saxlayırıq". Lavrov Azərbaycanın Ermənistana qarşı dövlətlərarası arbitraj prosesini başlatmasına da münasibət bildirib. O, Qarabağın enerji resurslarının istifadəsinə görə Bakının İrəvanı dəyən ziyanın ödənilməsi bağlı arbitraj məhkəməsinə verməsini Azərbaycan və Ermənistan arasında olan məsələ adlandırıb: "Rusiyanın mövqeyi ondan ibarətdir ki, bu, Azərbaycanla Ermənistan arasında olan ikitərəfli məsələdir. Məhkəmə prosedurunun daxil olduğu yol seçilib. Gözləyirik".

**"Rusiya stabil Cənubi Qafqazın mövcudluğunda maraqlıdır"**

**Lavrov deyib ki, Rusiya stabil, sülhün bərqərar olduğu Cənubi Qafqazın mövcudluğunda maraqlıdır:** "Bizim üçün qardaş olan iki xalqın barışması istiqamətində işlər görürük. İmzalanmış üçtərəfli sənədlər Ermənistan və Azərbaycan arasında normal münasibətlərin qurulması üçün möhkəm özül yaradır. Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün hər cür dəstəyi verməyə hazırıq. Biz başqa tərəflərin bu məsələlərə, öncə sülh sazişinə dair dəstək vermələrinə qarşı deyilik". Onun sözlərinə görə, lakin bu, səmimi şəkildə, burada daimi sülhün bərqərar olması üçün edildiyi halda mümkündür.

**"Azərbaycanla bizim planlarımızda genişmiqyaslı layihələrin həyata keçirilməsi var"**

*Rusiya XİN başçısı bildirib ki, planlarda genişmiqyaslı layihələrin həyata keçirilməsi var:* "Bura Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin genişləndirilməsi də daxildir. Həmçinin enerji sahəsində də əməkdaşlığımız genişlənir. "Qazprom", "Lukoil", "Rosneft" neft-qaz layihələrində birgə iştirak edirlər. Onların bu potensialının gücləndirilməsinə dair fikirləri var və biz təbii ki, bu planların reallaşmasına töhfə verəcəyik".

**İsmayıl**

# İslahatlar aparılmalıdır

## “Mədəniyyət Nazirliyində elə işçilər var ki, işlədiyi işdən xəbəri yoxdur”



**”Gələcəkdə ”Mədəni irs haqqında” qanun layihəsini hazırlayaraq təqdim etmək istəyirik”. Bunu Milli Məclisin Mədəniyyət komitəsi ilə Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyinin təşkil etdiyi birgə ictimai dinləmələr zamanı mədəniyyət nazirinin birinci müavini Adil Kərimli deyib. O bildirib ki, ”Mədəni irs haqqında” qanun layihəsi qeyri-maddi irsi də əhatə edəcək:**

”Təqdim olunan layihə Azərbaycanda mədəni irsin qorunması üçün zəruridir. Hazırda mədəniyyət sahəsində təhlil mərhələsindən keçilir. Problemləri tapıb həll edirik. Mədəniyyət sahəsi hər zaman diqqətdədir. Ciddi addımlar da atılır. Mədəniyyət sahəsində Dövlət proqramı hazırlanacaq. Kadr yanaşmaları fərqli olur. Mədəniyyət sahəsində uğursuzluqlar da var. İkinci problem isə cəmiyyətin düzgün yanaşmamasıdır. Mədəniyyət sahəsində islahatların aparılmasına ehtiyac var. İtməkdə olan əsərlərimiz Heydər Əliyev Fondu tərəfindən tapılıb üzə çıxarılır. Mədəniyyət sahəsində boşluqların və probemləri aradan qaldırmaq üçün dövlət sənədinin qəbul edilməsi lazımdır”.

**“Kadrların təyinatı ilə bağlı subyektiv məqamlar çoxdur”**

Nazir müavini qeyd edib ki, təyinatından iki ay keçib: ”Bu müddət ərzində tam şəkildə mədəniyyət sferasında baş verən prosesləri, infrastruktur, kadr potensialı ilə bağlı təhlil mərhələsindən keçməkdəyik. Hökumət tərəfindən mədəniyyətə hər zaman xüsusi diqqət və qayğı var, problemlərlə daha yaxından tanış olurlar. Mədəniyyət sahəsində uğursuzluqlar da var. İnstitusional səviyyədə problemləri gördükcə bu sahədə çoxlu qüsurların mövcud olduğunun şahidi oluruq. Kadrların təyinatı ilə bağlı subyektiv məqamlar da çoxdur. Bu sahədə geniş müzakirələrə ehtiyac var. Mədəniyyət sahəsində islahatların aparılmasına ehtiyac var. Problemləri aşkarladıqca həll edirik. Mədəniyyət sahəsi hər zaman diqqətdədir. Ciddi addımlar da atılır”. A.Kərimli deyib ki, ”Azərbaycan mədəniyyəti 2020-2040-cı illərdə dövlət strategiyası” hazırlanır. Onun sözlərinə görə, strategiya Mədəniyyət Nazirliyi tərəfindən hazırlanır.

Adil Kərimli vurğulayıb ki, Mədəniyyət Nazirliyində elə işçilər var ki, işlədiyi işdən xəbəri yoxdur: ”Bunları təkmilləşdirmək üçün hər kəsin dəstəyinə ehtiyac var. Nazirliyin 41 minlik heyəti var, 30 mini bölgələrdə çalışır. Bunlardan 7 faizi mədəniyyət sahəsi üzrə təhsil alıb”.

**“Mədəni abidələri qorumaq təkcə nazirliyin vəzifəsi deyil”**

Nazir müavini bildirib ki, Azərbaycanda 6380 mədəni abidə var: ”Bu mədəni abidənin 4000-ə yaxını Mədəniyyət Nazirliyinin tabeliyindədir. Azad olunan ərazilərimizdə 700-dən çox mədəni abidəmiz var. Bu abidələri qorumaq vəzifəsi təkcə nazirliyin üzərinə düşmür. Bu abidə bizim, sizin, cəmiyyətindir”.

**“Elə kəndlər var ki, kitabxanası yoxdur, vəziyyət acınacaqlıdır”**

Adil Kərimli qeyd edib ki, elə kəndlər var ki, kitabxanası yoxdur, vəziyyət acınacaqlıdır: ”Rayonlarda, ucqar kəndlərdə 7 minə yaxın mədəniyyət müəssisəsi var. Bura kitabxanalar, muzeylər, mədəniyyət mərkəzləri, mədəniyyət evləri daxildir. Bu sahədə çox ciddi problemlər var. Elə kəndlər var ki, kitabxanası yoxdur, kitabxanalarda vəziyyət acınacaqlıdır. Bu gün doğru-düzgün kitab təminatı yoxdur. Elə kənd var ki, bilinmir ki, hansı kitaba maraq var. O kənddə kitab anlayışı olduğundan belə şübhə edirik”.

**“Kənardan müdaxilələr olsa, milli ritm və rəqslərimizin itmə ehtimalı var”**

Mədəniyyət nazirinin birinci müavini bəyan edib ki, milli geyimlər və milli ritmlər üzrə yazılı standartlarımız yoxdur. Onun sözlərinə görə, bununla bağlı ciddi araşdırmalar aparılmalıdır: ”Çünki bir müddət sonra unudulacaq. Millətimizin mədəni dəyərlərini qorumaq lazımdır. Biz bilməyəcək ki, milli musiqi nədir, hansı zamana məxsusdur. Kənardan müdaxilələr olacaq. Milli standartlarımızdan biri də milli musiqilər, milli rəqslərdir, bu, millətimizin xarakterini göstərir. Kənardan müdaxilələr olsa, milli ritm və rəqslərimizin itmə ehtimalı var”.

**“Elə əsərlər də var ki, öz fondumuzda saxlanmalıdır”**

Mədəniyyət Nazirliyi Azərbaycan rəssamlarının əsərlərinin xaricdə satılmasına münasibət bildirib. Azərbaycanın məşhur rəssamlarının əsərlərinin xaricdə satılması ilə bağlı məsələyə toxunan Mədəniyyət Nazirliyi Aparatının Hüquq şöbəsinin baş məsləhətçisi Ülviyyə Fərəcova deyib ki, elə rəsm əsərlərimiz var ki, onları dünyaya çatdırmaq lazımdır: ”Elə əsərlər də var ki, öz fondumuzda saxlanmalıdır”.

**“Qərbi Azərbaycanda maddi və qeyri-maddi mənəvi irslərimiz var, qorumalıyıq”**

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycanda minillik tarixi abidələrimiz var: ”Bu abidələrin bəziləri ilə bağlı araşdırmalar aparmışıq”. Onun sözlərinə görə, əvvəllər Qərbi Azərbaycanda aşıq sənəti, adət-ənənələrimiz olub: ”İnsanlarımızın Qərbi Azərbaycandan çıxarılmasına görə bunlar itib. Qərbi Azərbaycanda maddi və qeyri-maddi mənəvi irslərimiz var, onları qorumalıyıq”.

**“Rayonda məktəb və xəstəxana var, mədəniyyətlə bağlı heç nə yoxdur”**

Sabir Rüstəmxanlı bəyan edib ki, rayonda məktəb və xəstəxana var, mədəniyyətlə bağlı heç nə yoxdur: ”Kəndlərimizin çoxunda kitabxana yoxdur. Rayonlarda kitabxana var, amma içi boşdur. Əvvəllər rayonlara da kitablar göndərilirdi. Rayonda məktəb var, xəstəxana var, amma mədəniyyətlə bağlı heç nə yoxdur. Bu, çox ciddi məsələdir. Mədəniyyətlə bağlı büdcədən ayrılan pul da azdır”. Deputat qeyd edib ki, gələcəyimiz haqqında düşünürüksə, birinci mədəniyyət haqqında düşünməliyik: ”Bir nümunə çəkim, əvvəlki rəqslərə baxırdıq, qızla oğlan gözəl rəqs edirdi. Amma indi elə deyil. Hamısı atılıb-düşür. Uzun zamandır yallı rəqsini görmürəm. Rəqs havalarımız toylarda pis günə düşüb. Onu da biz edirik”.

**“Qeyri-maddi mədəni irsimizdə qocalma təhlükəsi yoxdur”**

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov deyib ki, qeyri-maddi mədəni irsimizdə qocalma təhlükəsi yoxdur: ”Bu, keçmişimizin ənənəsidir, indi də davam edir. Qeyri-maddi mədəni irs nümunələri” sözləri bizdən yaranan sözlər deyil, bu, yeni terminlərdir. Bunu biz özümüzünküləşdirməliyik”.

**Mədəniyyət Nazirliyi ”Qorqud” ansamblının bərpası məsələsinə baxacaq**

Əməkdar artist Nuriyyə Hüseynova 40 ildən artıqdır fəaliyyət göstərən ansamblın fəaliyyətinə bu ilin əvvəllərində xitam verildiyini qeyd edib. Əməkdar artist nazirlik səviyyəsində bu məsələyə baxılmasını xahiş edib. Mədəniyyət nazirinin birinci müavini və hazırda nazir vəzifələrini icra edən Adil Kərimli öz növbəsində ansamblın fəaliyyəti ilə bağlı məsələnin tezliklə nazirlik səviyyəsində müzakirə olunacağına və problemin həlli istiqamətində iş görüləcəyinə söz verib. Qeyd edək ki, AMEA-nın Rəyasət Heyətinin 16 yanvar 2023-cü il tarixli qərarına əsasən, Folklor İnstitutunun Musiqi folkloru şöbəsi ləğv edildiyi üçün institutun Elmi şurasının qərarı ilə ”Qorqud” ansamblının da fəaliyyətinə xitam verilib.

**İsmayıl**

# Lukaşenko Pekinə yaltaqlanır

## Məqsəd Çini Rusiya və Belarusun yanına çəkməkdir





**Belarus Prezidenti Aleksandr Lukaşenko yeni iddia ilə çıxış edib. O deyib ki, ABŞ vətəndaş müharibəsini alovlandırmaq və Çini zəiflətmək üçün Çindəki uyğurlarla bağlı vəziyyəti gərginləşdirir. Lukaşenko əlavə edib ki, amerikalılar ayrı-ayrı dövlətlərə təzyiq və nəzarət edə biləcəkləri müxtəlif yollar və nöqtələr axtarırlar.**

Məlumat üçün bildirək ki, son günlər Çində uyğurlara qarşı amansız assimilyasiya siyasəti yenidən geniş miqyas alıb. Hər gün uyğurlara qarşı təzyiqlərlə bağlı tükürpədici faktlar yayılır. Belarus Prezidenti isə iddia edir ki, dini və irqi ayrıseçkliyə məruz qalan uyğurları Pekin hökumətinə qarşı kənar güclər, konkret ABŞ təhrik edir.

**Lukaşenkonun iddiasını ”Şərq”ə təhlil edən AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli əvvəlcə onu bildirib ki, vaxtı ilə ingilislərin, fransızların, belçikalıların Afrikanın qaradərili insanlarına, almanların yəhudilərə qarşı etdiyinin iki qatını bu gün Çin hökuməti uyğurlar üzərində tətbiq edir. Partiya rəsmisi deyib ki, Çin dövləti uyğurları milli-mənəvi baxımdan sındırmağa, məhv etməyə çalışır:** ”Lukaşenkonun iddiasından qabaq qeyd edim ki, uyğurlara qarşı sadəcə fiziki təzyiqdən istifadə edilmir, həm də mənəvi təhqirlərə məruz qalırlar. Təsəvvür edin, hər bir uyğur ailəsində çinli kişi yaşayır. Guya, həmin çinli uyğur ailəsinə Çin ölkəsinin qayda-qanunlarını, ”mədəniyyətini” öyrədir. Yəni uyğurları assimilyasiya etmək üçün hər yola baş vururlar. Bunu heç almanlar soyqırıma məruz qoyduqları yəhudilər üzərində etmirdilər. Əslində indiki məqamda Belarus prezidentinin belə çıxış etməsinin səbəbi bəllidir. Lukaşenkonun məqsədi Çini Rusiya və Belarusun yanına çəkməkdir. Sırf Pekinə xoş getsin deyə bu tipli açıqlamalar verir. Ancaq ümumən götürəndə uyğur türkləri və Tibet məsələsində ABŞ-nin öz maraqlarını güdməsi sirr deyil. Amerika hər bir regionda öz maraqlarından çıxış edir. Amma bu, qətiyyən Çindəki hakimiyyətin ədalətsiz olmadığı anlamına gəlmir və Pekinin hərəkətlərinə bəraət qazandırmır”.

**İsmayıl Qocayev**

# Moskva və Tehran yaxınlaşmağa məcburdur

## Çünki həm Rusiya, həm də İran Qərb təhlükəsi qarşısındadır



**İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian yaxın vaxtlarda Rusiyaya səfər etməyi planlaşdırır.**

**Bu barədə İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Naser Kanani məlumat verib.**

“Yaxın vaxtlarda İran xarici işlər nazirinin Rusiyaya səfəri planlaşdırılır. Onun rusiyalı həmkarı Sergey Lavrovla görüşü gözlənilir”, - N.Kanani bildirib.

**Səfərin mahiyyətini ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev qeyd edib ki, Ukrayna müharibəsi nəticəsində dünya Şərq və Qərb qütbünə bölünüb:** ”Hər iki qütb arasındakı münasibətlər sərtləşməyə və üzvlər arasındakı əlaqələr intensiv şəkildə sıxlaşmağa başlayır. Biz bunu xüsusilə İran və Rusiya arasında olan münasibətlərdə görürük. Belə ki, İran Ukrayna müharibəsi başlayan ərəfələrdə yenidən nüvə danışıqlarına qayıtmaq mərhələsində idi.

Qərb isə sanksiyalar haqqında düşünürdü. Lakin sonra cənub qonşumuzun raketləri Ukrayna səmasında görünürdü. Bundan sonra isə Qərb və İran münasibətləri gözlənilməz yara aldı. Hətta məlum oldu ki, İran və ölkədəki paralel hakimiyyət sayılan SEPAH Rusiyanın ciddi təzyiqi altındadır. Yəni onların arasında sıx əlaqələrin olduğu bəlli oldu”.

Analitikin sözlərinə görə, Abdullahian diplomatik korpusda SEPAH-ın adamı kimi tanınır: ”Onu islahatçı kimi tanınan keçmiş XİN rəhbəri Cavad Zərif vəzifədən azad etmişdi. Çünki onu SEPAH yerləşdirmişdi. Qərblə münasibətlərə Cavad Zərif baxsa da, Abdullahian yaxın Şərq ölkələri ilə əlaqələri kurasiya edirdi. Onu daha çox SEPAH naziri kimi tanıyırdılar. Cavad Zərifin onu istefa etdirməsinə baxmayaraq, islahatçı hökumət seçkiləri uduzdu və indiki rejim hakimiyyətə gəldi.

SEPAH isə bütün gücünü ortaya qoyaraq heç bir diplomatik təcrübəsi olmayan Abdullahianı XİN postuna gətirdi. Digər tərəfdən, İran XİN rəhbərinin Rusiya səfəri rəsmi Tehranla, Moskvanın güc strukturları arasındakı dərinləşməyə hesablanıb.

Çünki həm Rusiya, həm də İran Qərb təhlükəsi qarşısındadır. Bu da hər iki ölkəni daha da sıx birləşməyə və aralarındakı münasibətləri inkişaf etdirməyə təlesdirir”.

**Nihat Müzəffər**

# Simonyan "odla oynayır"

## Görünür, ermənilər Putinin şilləsini yeməsələr, yuxudan ayılmayacaqlar



**Bakı ilə münasibətlərin tənzimlənməsində Moskvanın rolunu şərh edən Ermənistan Parlamentinin spikeri Alen Simonyan deyib ki, Moskva digər ölkələrin Ermənistan-Azərbaycan münasibətlərini normallaşdırmaq təşəbbüslərinə həddən artıq emosional və əsəbi reaksiya verir.**

Simonyan bildirib ki, əlbəttə, Moskvanın rolu var, olmaya da bilməz, çünki bölgədə rus sülhməramlıları yerləşdirilib. Lakin buna baxmayaraq, erməni spiker hər hansı tərəf müsbət bir şey etməyə çalışanda Moskvadan gələn emosional hərəkətləri, əsəbi reaksiyaları lazımsız hesab etdiyini söyləyib: ”Bu, lazım olduğundan daha emosionaldır”. Simonyan əlavə edib ki, Rusiya tərəfinin reaksiyası daha sakit və təmkinli olmalıdır. Onun sözlərinə görə, Moskva vəziyyəti başa düşməlidir: ”Ermənistanın öz maraqları və təhlükəsizliyi var və o, ”geosiyasi vəziyyətə, kiminsə istəklərinə və ya qısqanclığına baxmayaraq”, bunu təmin etməlidir”. Xatırladaq ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Bakıda səfərdə olarkən ”Ermənistan Avropa İttifaqı missiyasını bölgəyə gətirməklə yanlışlığa yol verir” cümləsini işlədib.

**Politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistan Rusiyaya ”müstəqil ölkə” olduğu mesajını verməyə çalışır:** ”Yəni demək istəyir ki, ”bizim təhlükəsizliyimizi qoruya bilmədiniz, yaxud qorumaq istəmədiniz, biz də məcbur qalıb öz təhlükəsizliyimizi başqa yerdə axtarırıq”. Əslində İrəvan tərəfi Rusiyanın emosionallığını bölgədə özünü ali statusda aparmaq və Ermənistana yuxarıdan aşağı baxmaq kimi xarakterizə edir. Həm də İrəvan bununla Moskvanın emosionallığının yersiz olduğunu, hər bir ölkənin öz təhlükəsizliyi üçün sərbəst davranmaq hüququnu bildirmək istəyib. Amma Ermənistan unudur ki, onun qarşısındakı ölkə imperialist maraqları olan, xəstə təfəkkürə malik Rusiyadır. Deyəsən, ermənilərin Ukraynada baş verənlərdən xəbərləri yoxdur. İrəvan öz istəyini elə tərzdə deyib ki, sanki Ermənistanın mövqeyinin Rusiya üçün bir əhəmiyyəti var. Elə zənn edirlər ki, Moskva İrəvanın aldığı qərarları qəbul edərək, onlara hörmət göstərəcək. Emosionallıqdan danışmaq isə verilən bəyanatın ən pik və gülməli tərəfidir. Rusiya heç bir səbəb olmadan Ukraynada bir ildən çoxdur ki, hər cür vəhşilikləri edir. Dinc sakin, uşaq, böyük, yaşayış massivi demədən qış ayında bombalayır, raket atəşinə tutur. Erməni spiker isə emosionallıqdan, hansısa hüquq və təminatdan danışır. Görünür, ermənilər Putinin şilləsini yeməsələr, yuxudan ayılmayacaqlar. Öz nağıl dünyalarında qalacaqlar. Belə davam etsələr, Putindən öncə Azərbaycanın şilləsini görəcəklər. Bəlkə onda ağılları başlarına gələr”.

**İsmayıl Qocayev**

# "Jurnalistin də səviyyəsi çatmır, icra başçısının da"

## Elçin Şıxlı: “Bayram Səfərovun Şuşaya səfər etməsinin ictimai əhəmiyyəti yoxdur”



**”Həm jurnalist, həm də icra başçısı yanlış hərəkət edib. İcra başçısı elə tərzdə danışmamalıdır. Jurnalist də sualı o cür verməməlidir.**

*Bunu ”Şərq”ə açıqlamasında Azərbaycan Jurnalistlər Birliyinin sədri, ”Ayna-Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı Şuşanın icra başçısı Bayram Səfərovla jurnalistin arzuolunmaz dialoquna münasibət bildirərkən deyib.*

Baş yazar qeyd edib ki, B.Səfərovun Şuşaya səfər etməsinin ictimai əhəmiyyəti yoxdur: ”O, Şuşaya gedə də bilər, getməyə də. Jurnalistin də, cavab verən adamın da səriştəsi və səviyyəsi çatmır”.

*Xatırladaq ki, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərovla ona sual ünvanlayan jurnalistin dialoqu müzakirələrə səbəb olub. Jurnalist Fərid İsmayılov B.Səfərova Şuşaya səfər edib-etməməsilə bağlı sual verib. Sualdan yayınan icra başçısına jurnalist növbəti dəfə sual verdikdə, o, əsəbiləşib. Media nümayəndəsinin ”Jurnalist sizdən hesab soruşa bilməz?” replikası isə gərginliyi artırıb. Bəzi media nümayəndələri bu məsələdə jurnalistə dəstəyini bildirsə də, onu tənqid edənlər də olub.*

**Aygün Tahir**



# 68 min hektar ərazi minalardan təmizlənib

## Ağdamda Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası keçirilib

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun Ağdam şəhərində iclası keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzi Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev, İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.



İşçi qrupun iclasında, dövlət və özəl strukturlar tərəfindən daxil olmuş müraciətlərə və hökumətin müəyyən etdiyi prioritetlərə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müvafiq layihələrin icrası məqsədilə nəzərdə tutulmuş ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi fəaliyyəti barədə müzakirələr aparılıb.

İclasda açılış nitqi ilə çıxış edən Vüqar Süleymanov İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət və özəl qurumları tərəfindən 68 min hektar ərazinin mina və partlamamış hərbi sursatlardan təmizləndiyini, 82 mindən artıq partlayıcı qurğunun aşkar edilərək zərərsizləşdirildiyini bildirib. Eyni zamanda "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam üzrə strateji əhəmiyyətə malik layihələrin minalardan təmizlənməsi və əlaqəli şəkildə icra edilən bərpa-quruculuq istiqamətində görülən əhəmiyyətli işlər barədə məlumat verib.

İclasda çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev ölkə Prezidentinin azad edilmiş ərazilərin yenidən qurulması və dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətindəki tapşırıqlarına uyğun olaraq Qarabağda aparılan minatəmizləmə fəaliyyəti və sosial-iqtisadi layihələrdən danışıb.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Sultan Hacıyev Əlaqələndirmə Qərargahının ötən dövr ərzindəki fəaliyyətindən, işğaldan azad edilmiş ərazilərdə aparılan minatəmizləmə əməliyyatlarından sonra həyata keçirilən bərpa, quruculuq işlərindən, habelə 2023-cü ildə qarşıda duran vəzifə və öhdəliklərdən söz açıb.

Sonra işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müxtəlif özəl və dövlət qurumunun əməkdaşları üçün keçirilən təlimlərin əhəmiyyəti, minatəmizləmə sahəsində mövcud resursların birgə faydalı istismarına dair müzakirələr aparılıb.

Ağdam rayonunda keçirilən tədbir çərçivəsində minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumların 2023-cü il üzrə hökumət tərəfindən müəyyən edilmiş ərazilərdə icra etdiyi təmizləmə sahələrinə səfərlər edilib, layihələrin icrasına baxış keçirilib.

# Ərdoğan söz verdi

## Zəlzələ bölgəsində 3 və ya 4 mərtəbəli binalar tikiləcək



**"Bu günə qədər zəlzələ bölgəsindən ümumilikdə 20 min 300 vətəndaşımız təxliyə edilib". Bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı brifinqi zamanı deyib. Ərdoğan əlavə edib ki, bu rəqəmlərə öz rayon və kəndlərinə qayıdanlar, həmçinin qohumlarının yanına gedənlər aid deyil:**

"Çadır kənd və konteyner kəndlərin yaradılması prosesi davam edir. Hazırda çadırlarda, yataqxanalarda və digər bu kimi yerlərdə 461 000 vətəndaşımız yerləşdirilib. Təkcə Kahramanmaraşda qurulan çadır sayı 77 000-ə yaxındır".

**"Zəlzələ bölgəsində 98 faiz insanın içməli su problemi həll edilib"**

Ərdoğan deyib ki, zəlzələ bölgəsində 98 faiz insanın içməli su problemi həll edilib: "Zəlzələ bölgəsində elektriklə bağlı olan problemlər, demək olar ki, tamamilə həll edilib. Həmçinin təbii qazla bağlı problemlər də həll olunmaqdadır. Bunun nəticəsində zəlzələ bölgəsinin 75 faizinə təbii qaz verilir. İçməli su məsələsi istiqamətində də işlər davam edir. Bu gün üçün zəlzələ bölgəsində 98 faiz insanın içməli su problemi həll edilib".

Ərdoğan vurğulayıb ki, şəhərlərin yenidən qurulması layihəsi Türkiyə üçün çox əhəmiyyətlidir: "Zəlzələ təhlükəsi altında olan şəhərlərdə bütün gücümüzlə çalışacağıq. Zəlzələ reallığını yaşadığımız son hadisələr bunu bizə xatırlatdı". O bildirib ki, şəhərlərin yenidən qurulması layihəsi Türkiyə üçün çox əhəmiyyətlidir: "Zəlzələ təhlükəsi olan bütün şəhərlərdə bu layihənin tətbiqinə başlayacağıq. Növbəti zəlzələlərdə dağıntılar altında qalanlarımızın olmaması üçün bu, son dərəcə vacibdir".

**"Bütün dağıntıları bərpa edəcək əzmə və qüdrətə sahibik"**

Türkiyə lideri bildirib ki, zəlzələ nəticəsində həyatını itirənləri geri qaytarmaq mümkün deyil: "Amma onun xaricində bütün yaraları saracaq, bütün dağıntıları bərpa edəcək əzmə və qüdrətə sahibik. TOKİ zəlzələ sınağını tikdiyi binaların zəlzələyə və digər fəlakətlərə dayanıqlığı başda olmaqla vermiş və özünü sübut etmiş bir qurumdur. Vanda, Ərzincanda, Malatyada, İzmirdə etdiklərimizi eyni formada edəcəyik".

Ərdoğan deyib ki, zəlzələ baş verən şəhərlərimizdə 3 və ya 4 mərtəbəli binalar tikiləcək: "Tektonik qırılma xətləri keçən ərazilərdə binalar tikməyə icazə verməməkdə qərarlıdırlar. Çöllərdən dağlara doğru yaşayış yerlərini dəyişəcək, yeni yaşayış sahələri salacağıq".

**İsmayıl**



# Təmirin üç il uzanması bəhanədir

## Gəncəyə işləyirsə, digər rayonlara da qatar reyslərini açmaq olardı

**Qarşıdan Novruz bayramı gəlir. Hər il bayram ərəfəsi rayonlara sərnişin axını artdığından Bakı Beynəlxalq Avtovağzal Kompleksində izdiham yaşanır. Sərnişinlər avtobusa bilet tapa bilmədiklərindən taksilərin xidmətindən yararlanmaq məcburiyyətində qalırlar.**

Taksilər isə həmin ərəfədə qiyməti ikiqat bahalaşdırırlar. Qeyd edək ki, sərnişin qatarlarının ölkədaxili hərəkəti artıq üç ildir ki, məhdudlaşdırılıb. Hazırda sadəcə Bakı-Gəncə-Bakı reysi işləkdir. Vətəndaşlar rayonlara sərnişin qatarlarının olmamasından şikayətçidirlər.

Onlar qatarla yol getməyin daha təhlükəsiz və rahat olduğunu düşünürlər. Bu səbəbdən də reyslərin tez bir zamanda bərpa olunmasını istəyirlər. Ölkədaxili qatarların işləməməsi sərnişinlər üçün həm də maddi baxımdan problem yaradır.

Ekspertlər isə hesab edir ki, rayonlara dəmiryolu ilə sərnişindaşımanın bərpa olunmamasının səbəbi pandemiya ilə bağlı deyil. Əks halda Gəncəyə qatarla sərnişindaşıma bərpa olunmazdı. Mütəxəssislər təmirin 3 il davam etməsini də inandırıcı saymır.

Bu qədər narazılıq fonunda, görəsən, dəmiryolu ilə bölgələrə sərnişindaşıma niyə bərpa olunmur?

Məsələ ilə bağlı "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib ki, hazırda ölkədə dəmiryol nəqliyyatı infrastrukturunda əsaslı təmir işləri aparılır. Bir sıra istiqamətlərdə sabit cərəyandan, dəyişən cərəyan sisteminə keçid üzrə işlər görülür, elektrik xətləri, işarəvermə və rabitə sistemləri, o cümlədən stansiyalardakı inzibati binalar təmir edilir. Kompleks tədbirlər planı tamamlandıqca, ölkədaxili sərnişin daşımalarının bərpası növbəli şəkildə gündəmə gələcək.

> Ümid edirəm ki, Rövşən Rüstəmov bu problemin həllinə ciddi diqqət ayıracaq və məsələ yaxın günlərdə öz həllini tapacaq

**Azərbaycan Texniki Universitetinin Avtomobil daşımaları və yol hərəkətinin təşkili kafedrasının dosenti, nəqliyyat eksperti Fərhad Eyyubov isə hesab edir ki, bu məsələ ilə bağlı birbaşa "Azərbaycan Dəmir Yolları" QSC məsuliyyət daşıyır.**

Təmir işlərinə görə bütün reyslər bağlanmaqdansa, işlər hissə-hissə aparılmalı idi: "Təmir deyə bilərlər, amma bu qədər müddət təmir ola bilməz. Bu məsələnin 3 il uzunması kifayət qədər narahatlıq doğurur. Bilirsiniz ki, bir neçə ay əvvəl ADY-nin rəhbərliyi dəyişdi. Ümid edirəm ki, Rövşən Rüstəmov bu problemin həllinə ciddi diqqət ayıracaq və məsələ yaxın günlərdə öz həllini tapacaq".

İlkin dövrdə dəmiryolunda gediş-gəlişin pandemiyaya görə dayandırıldığını xatırladan F.Eyyubov deyib ki, xüsusi karantin rejimi yumşaldılandan sonra bir çox yer açılıb və digər nəqliyyat növləri işləyir. Gəncəyə gedən sürət qatarı bərpa olunubsa, deməli, digər rayonlara gedən qatar reyslərini də açmaq olardı.

**Şeymən**

# Ermənilərin Lavrov əndişəsi...

## Kreml İrəvanın yox, Bakının dürüstlüyünə inanır

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov 27-28 fevral tarixlərində Bakıda səfərdə olub. Səfərin proqramına əsasən, Lavrov Bakıda azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşüb. Həmçinin Rusiya-Azərbaycan Ekspert Şurasının "XXI əsrdə Rusiya-Azərbaycan münasibətləri: regional təhlükəsizlik kontekstində strateji tərəfdaşlıq" mövzusunda üçüncü iclasında iştirak edib.**

> Üçtərəfli bəyanatda Azərbaycan və Rusiyanın fikirlərinin üst-üstə düşdüyü ən əsas müddəa kommunikasiyalarla bağlıdır



Rusiya XİN başçısı səfərin ilk günündə Prezident İlham Əliyev tərəfindən də qəbul olunub. Dövlət başçısı Lavrovla görüşü zamanı 2023-cü ilin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında irəliləyiş ili olacağına ümid etdiyini deyib. Ölkə rəhbəri qeyd edib ki, Rusiya dostumuz, müttəfiqimiz və qonşumuz kimi İrəvan-Bakı münasibətlərinin nizamlanmasına kömək işində xüsusi rola malikdir: "Ötən il bu istiqamətdə mühüm səy göstərilib. Gələcək sülh müqaviləsinin konseptual xarakterini, məhz iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı tanınmasını müəyyən edən sənədlər qəbul olunub. Ötən ilin oktyabrında Praqada və Soçidə qəbul edilmiş sənədlər sülh müqaviləsinə nail olmaq üçün istifadə edilə bilən təməldir". Prezident vurğulayıb ki, Azərbaycan tərəfi düşmənçilik səhifəsini tezliklə çevirmək və Cənubi Qafqaza sülhü qaytarmaq üçün Ermənistanla, qonşu Rusiya ilə müsbət və konstruktiv iş aparmaq əzmindədir. Rusiya XİN başçısı da vurğulayıb ki, regional təhlükəsizlik həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdə olduqca aktual mövzu kimi qalır. Qeyd edib ki, beynəlxalq həmkarların çoxu, o cümlədən bu regiondan uzaqda yerləşənlər Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması yolunda irəliləyişə şərait yaratmağa böyük maraq göstərirlər: "Prezident Putinin dəfələrlə dediyi kimi, biz vəziyyətin sabitləşməsi, bu regionda yerləşən bütün ölkələrin normal, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında öz ölkələrinin və xalqlarının mənafeləri naminə əməkdaşlıq etmək imkanları olması üçün şərait yaradılmasına yönəlmiş bütün səyləri alqışlayırıq". Lavrovun Bakı səfəri, daha doğrusu, Bakıdan sonra İrəvana getməməsi Ermənistanda ciddi narahatlığa səbəb olub. Çünki Rusiya xarici işlər naziri adətən Azərbaycan və Ermənistanın paytaxtlarına eyni səfər çərçivəsində gedib. Erməni analitik Akop Badalyan deyib ki, Lavrov Rusiyanın Cənubi Qafqaz mövqeyini müdafiə etməyə hazırlaşır. Lakin onun sözlərinə görə, burada Ermənistan və Qarabağ ermənilərini narahat edən amil mövcud vəziyyətin onların mövqeyini nə dərəcədə təhdid etməsidir: "Fevralın 23-də Ermənistan tərəfinin təşəbbüsü ilə Paşinyanla Putin arasında telefon danışığı olub. Bunun ardınca Putinlə Ərdoğan arasında telefon danışığı aparıldı. Bu danışıq fonunda Rusiya regionda mövqeyini qorumaq baxımından Azərbaycana müəyyən güzəştlər edə bilər". Tanınmış rusiyalı politoloq Sergey Markov da deyib ki, Lavrovun Bakı səfəri Ermənistan rəhbəri N.Paşinyanın Fransa və ABŞ-yə meyillənməsi, İrəvanı Rusiyanın düşmənləri ilə əvəzləməsi fonunda baş verir: "Ermənistan Fransa və AB-ni Cənubi Qafqaza sürükləməyə çalışır".

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov deyib ki, Azərbaycan və Rusiya arasında həmişə olduğu kimi ən böyük müzakirə mövzusu məhz Ermənistanla, daha doğrusu, Qafqazdakı "erməni məsələsi" ilə bağlıdır. Analitik bildirib ki, üçtərəfli bəyanatda Azərbaycan və Rusiyanın fikirlərinin üst-üstə düşdüyü ən əsas müddəa kommunikasiyalarla bağlıdır:** "Həm Bakı, həm Moskva dəfələrlə Zəngəzur dəhlizinin açılmasının vacibliyini qeyd ediblər. Lakin son iki ildə Ermənistan tərəfinin davranışı Zəngəzur kimi vacib geosiyasi əhəmiyyətli dəhliz ətrafında regional və beynəlxalq güclər arasında rəqabəti bir qədər də artırıb. Ermənistan və Qərbin istəyi yolda giriş-çıxışın Rusiya tərəfindən deyil, Ermənistan tərəfindən təmin olunmasıdır. Paşinyanın vaxtı uzatması Zəngəzur dəhlizinin açılmasına imkan verməyib. Bütün sərhədlərinə Rusiya hərbçilərinin nəzarət edildiyi bir vaxtda Zəngəzura fransız-alman jandarmeriyasını gətirən Paşinyan son addımları ilə rəsmi Bakının demarş imkanlarını özü də bilməyərək genişləndirmiş oldu. Azərbaycan-Ermənistan sülh müqaviləsi məsələsi Moskva-Bakı arasında müzakirə predmetidir. İki ölkə arasında sülhün əldə olunması Rusiya üçün Qafqazda yeni siyasi mənzərə yaradacağından bu mövzu ətrafında müzakirə ediləsi bir çox məsələlər var. Aydındır ki, sülh müqaviləsində birbaşa "Qarabağ" ifadəsi yer almaya bilər. Lakin bu və ya digər şəkildə rəsmi İrəvan Qarabağa iddialarından əl çəkməli, eyni zamanda iki dövlət arasında sərhədlər müəyyənləşməlidir. Bu məsələlərdə Rusiyanın kifayət qədər təsir imkanlarının olduğunu nəzərə alsaq, Azərbaycan və Rusiya arasında dialoqun nə dərəcədə vacib olduğunu başa düşərik. Əlbəttə, sirr deyil ki, Moskva Qarabağdakı separatçıların Azərbaycana inteqrasiyasına isti baxmayacaq. Lakin müəyyən şərtlər qarşılığında Azərbaycan və Rusiya arasında mümkün bazarlıq kifayət qədər realdır. Separatçıların tərksilah edilməsi qarşılığında Kreml Qafqaza kənar geosiyasi müdaxilələrin qarşısını almış olar".

> "Sirr deyil ki, Moskva Qarabağdakı separatçıların Azərbaycana inteqrasiyasına isti baxmayacaq. Lakin müəyyən şərtlər qarşılığında Azərbaycan və Rusiya arasında mümkün bazarlıq kifayət qədər realdır"

**Z.Məmmədova görə, İran faktoru da ənənəvi olaraq Kremllə Azərbaycan arasında vacib istiqamətlərdən biridir:** "Rusiyanın başının Ukraynaya qarışmasından istifadə edən İran son 2 ildə çox kobud şəkildə Cənubi Qafqaza, Arazın şimalındakı proseslərə müdaxilə etməklə məşğuldur. İki il əvvəl Lavrov mümkün müdaxiləyə qarşı İran XİN başçısı Abdullahiana iradını bildirsə də, hazırda Rusiyanın hərbi-texniki məsələlərdə İrandan asılılığı müəyyən müddət ərzində Tehranın boş buraxılacağı ilə nəticələndi. Hər bir halda Azərbaycanın Rusiyadan istəkləri məlumdur. Bunlar Qarabağdakı hərbi birləşmələrin buraxılması, bölgənin Azərbaycana inteqrasiyasıdır. Rəsmi Bakı ona verilən vədlərin, sözlərin əməl olunacağına ümid edir və başa düşür ki, regiondakı çağırışların həlli, həm də Rusiya ilə münasibətlərdən və dialoqdan asılıdır. Xüsusilə nəzərə alınmalıdır ki, hazırda bütün dünya ölkələri üçün yeni tarixi səhifə açılmaqdadır. Beynəlxalq münasibətlər sistemi yeni mərhələsinə qədəm qoyur. 2025-ci ildən bölgədə yeni hərbi-siyasi xəritə çəkilə bilər".

**İsmayıl Qocayev**

# Uzaq yaxın olur

## Blinkenin Orta Asiya səfəri ciddi hadisədir

**ABŞ-nin dövlət katibi Entoni Blinken Qazaxıstanda səfərdədir. Blinkenlə Qazaxıstanın xarici işlər naziri Muxtar Tleuberdi arasında görüş olub. Daha sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ABŞ dövlət katibini qəbul edib. Tərəflər iki ölkə arasında münasibətlərin səviyyəsini müzakirə ediblər. Tokayev ABŞ-nin Qazaxıstanın müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsinə görə minnətdarlığını bildirib.**



***"Görünən odur ki, Mərkəzi Asiya ölkələri Rusiyanın təsir dairəsindən çıxmaq üçün alternativ vasitələrdən də yararlanırlar"***

O, Amerikanın 62 milyard dollar investisiya ilə ölkə iqtisadiyyatında ən böyük sərmayəçilərdən biri olduğunu deyib. Tokayev ABŞ-nin C5+1 formatının genişlənməsində rolunu, Mərkəzi Asiya respublikaları və ABŞ xarici işlər qurumlarının Astanada görüşünün keçirilməsinin vacibliyini vurğulayıb. Xatırladaq ki, Blinken "S5+1" (Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan, Türkmənistan, Tacikistan və ABŞ) formatında Mərkəzi Asiya ölkələrinin xarici işlər nazirləri ilə görüşüb.

Amerika rəsmisinin Orta Asiya səfərini "Şərq"ə dəyərləndirən "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov xatırladıb ki, 2022-ci ilin yanvar ayının əvvəllərində Qazaxıstanda qarşıdurma yaşananda, nümayişlər baş verəndə Rusiya öz qoşunlarını Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Qazaxıstana yeritdi. Analitikin sözlərinə görə, o vaxt rusiyalı ekspertlər KTMT qoşunlarının Qazaxıstandan çıxmayacağını, uzun müddət bölgədə qalacağını iddia edirdilər. Amma 3 gün sonra KTMT-nin hərbi qüvvələri Qazaxıstanı tərk etmək məcburiyyətində qaldı: "Çünki ABŞ və Çinin çox sərt ultimatumu oldu. Qazaxıstan Amerika üçün investisiya qoyulacaq potensial ölkələrdən sayılır. Tokayev də dedi ki, ABŞ-nin ölkədə 62 milyard dollar sərmayəsi var. Əlbəttə, Rusiyanın da Qazaxıstandakı sərmayəsi heç də az deyil, hətta daha çox ola bilər. Ancaq görünən odur ki, Mərkəzi Asiya ölkələri Rusiyanın təsir dairəsindən çıxmaq üçün alternativ vasitələrdən də yararlanırlar. Mərkəzi Asiya dövlətləri yaxınlıqdakı Çinlə yanaşı, uzaq Qərb ölkələri ilə də iqtisadi əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Çünki Çin yaxınlıqda olduğuna görə, öz investisiyası və yumşaq güc siyasəti ilə Mərkəzi Asiya ölkələrinə daha çox təsir imkanı qazanmış olacaq. Yəni Rusiyanın başqa bir variantı üzə çıxacaq. O baxımdan indiki məqamda ən optimal yol Qərblə əməkdaşlıqdır".

**Ekspertin fikrincə, atılan addımlar yaxın zamanda öz nəticəsini göstərəcək:** "Rusiyanın bölgədə nüfuzu kifayət qədər güclüdür. Moskva Mərkəzi Asiyanı əldən verməmək üçün ən sərt tədbirlərə əl ata bilər. Kremlin prioritetlərindən biri Mərkəzi Asiya regionunda möhkəmlənməkdir. Ona görə də hansısa formada regionu əlində saxlamağa çalışır. Xatırlayırsızsa, bir müddət öncə rusiyalı rəsmilər iddia edirdilər ki, Qazaxıstanın şimalı Rusiya torpaqlarıdır. Hətta həmin ərazini yenidən Rusiyaya qatmaq tələbləri səsləndirilirdi. Düzdür, indi vəziyyət bir qədər fərqlidir. Hesab edirəm ki, Rusiya-Ukrayna müharibəsi həm Qazaxıstan, həm də digər Mərkəzi Asiya ölkələrinin bunu fürsət kimi dəyərləndirməsinə yol açıb. Blinkenin XİN rəhbərləri ilə görüşü də region ölkələrinin Qərbə inteqrasiyasını gücləndirəcək".

**İsmayıl Qocayev**

**Dünən Türkiyənin Malatya şəhərinin Yaşılyurd rayonunda 4,1 bal gücündə zəlzələ baş verib. Bu barədə AFAD məlumat yayıb. Zəlzələ yerin 7 kilometr dərinliyində meydana gəlib. Tələfat və dağıntı barədə məlumat yoxdur.**

Qeyd edək ki, ötən gün Türkiyənin Adıyaman şəhərinin Gölbaşı rayonunda 5 bal, Malatya vilayətinin Yaşılyurd rayonunda isə 5,6 bal gücündə zəlzələ baş verib. Nəticədə 1 nəfər həlak olub, 110 nəfər isə yaralanıb.

**Türkiyənin yerləşdiyi əraziyə uyğun olaraq zəlzələnin gözləndiyini deyən ekoloq, seysmoloq Ənvər Əliyev "Şərq"ə vurğulayıb ki, biz hadisənin İstanbulda olacağını proq-**



# Zəlzələ ilə bağlı Azərbaycana ciddi təhlükə yoxdur

## Ənvər Əliyev: "Ancaq bu bizi rahatlatmalı deyil"

**nozlaşdırırdıq:** "Hadisənin görüntülərini izlədikdən sonra təəssüfləndim. Dünya tikinti sektorunun nəhənglərindən olan Türkiyədə zəlzələyə davamsız binaların tikilməsi seysmik cəhətdən uyğunsuzdur. Ümumiyyətlə, Türkiyə Alp-Himalay qurşağında yerləşdiyi üçün hadisələr gözləniləndir. Bu fəlakət bizə və dünyaya dərs olmalıdır ki, hansı qurşaqda yerləşdiyimizi bilək. Biz həm elmi, həm də praktik cəhətdən bəzi şeylərə əməl etməliyik. İkincisi, hazırda zəlzələlərin davam etməsi də ehtimal olunandır.

***"Biz binaların tikilişində müasir tikinti texnologiyalarından istifadə edərək 10 ballıq zəlzələyə belə davam gətirəcək binalar tikməliyik"***

Çünki Ərəbistan adındakı nəhəng Litosfer tavası Anadoluya doğru gəldi və həmin ərazidə toqquşma oldu. Bu Litosfer tavaları maqmanın üstündə hərəkət edən quru parçalarıdır. Bəzən onlar üstə çıxır, bəzən də biri-biri ilə toqquşurlar. Bütün seysmik qurşaqlardakı aktivliyin səbəbi bu tavalardır. Azərbaycan ərazisində isə bu tavanın qəflətən gəlməsi və biri-birinin üstünə çıxması gözlənilmir. Ancaq bu bizi rahatlatmalı deyil. Biz binaların tikilişində müasir tikinti texnologiyalarından istifadə edərək 10 ballıq zəlzələyə belə davam gətirəcək binalar tikməliyik".

**Seysmoloqun sözlərinə görə, Türkiyədəki zəlzələnim yenidən təkan verməsi davamlılıq planına uyğundur:** "Zələlənin davam etməsi yer qabığında gedən prosesin nəticəsidir. Yəni tavaların biri-biri ilə toqquşması nəticəsində, Litosfer tavasının üç metrə üzərə çıxıb sürüşməsi zəlzələnin davam etməsinə yol açır. Praktikaya əsaslansaq, bu dalğalar 15-20 gün, bəzən isə 6 aya qədər davam edir. Həmçinin Alp-Himalay qurşağında yerləşən ölkələrin hamısı bundan nəticə çıxarmalıdır. Çünki bu qurşaqdakı hadisələr illərdir, davam edir. Əvvələr Aşqabadda, Daşkənddə olmuşdu, indi Suriyanı, Türkiyəni dağıdır. Gələcəkdə isə Livanda olacağı ehtimal edilir. Biz bu qurşaqda olduğumuz üçün qorxmasaq da, daha məsuliyyətli olmalı və öncədən tədbirlər görməliyik".

**Nihat Müzəffər**

# Tərəflər ortaq razılığa gəlməlidir

## Söküləcək binaların sakinləri ilə mütləq anlaşma olmalıdır



**Artıq bir neçə ildir ki, paytaxtda istismara yararsız və qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, o cümlədən şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış evlərinin sökülərək yeniləri ilə əvəz olunması prosesi aparılır.**

Qanunvericiliyə əsasən, mənzili sökülən şəxslərə ya kompensasiya ödənilir, ya da evi başqa bir mənzillə dəyişdirilir. İkinci hadisə nadir hallarda baş verdiyindən tikinti şirkətləri daha çox vətəndaşlara kompensasiya ödəməyə üstünlük verirlər. Bəzən isə kompensasiya məbləği MTK-larla ev sahibləri arasında narazılıq yaradır.

Qeyd edək ki, budəfəki söküntü paytaxtın Yasamal rayonunda istismar müddəti bitmiş fərdi yaşayış evlərində aparılacaq. Söküntü işləri 1-ci Alatava sahəsində həyata keçiriləcək. Həmin ərazidə yeni məhəllə salınacaq. İlkin layihədə 13-14 və 16 mərtəbli yaşayış binalarının tikintisi nəzərdə tutulur.

Sakinlərin sözlərinə görə, Yasamal rayonunda yerləşən əraziyə baxış keçirildikdən sonra onlara söküntü işlərinin aparılacağı bildirilib. Uzun illərdir burada yaşayan sakinlər deyirlər ki, bu məsələdə əvvəlcə qarşılıqlı razılıq əldə olunmalıdır.

"Milli.Az" bildirir ki, Yasamal Rayon İcra Hakimiyyətinin memarı Eyvaz Bağırovun "Xəzər Xəbər"ə dediyinə görə, 1-ci Alatava adlanan yaşayış sahəsində fərdi evlərin əksəriyyətinin istismar müddəti bitib. Kommunikasiya və nəqliyyat problemləri ərazidə xaotik vəziyyətin yaranmasına səbəb olub. Buna görə də ərazidə söküntü işlərinin aparılmasına qərar verilib. Artıq sözügedən ərazi ilə bağlı ilkin layihə hazırlanır. E.Bağırov əlavə edib ki, aidiyyəti qurumdan razılıq alındıqdan sonra ərazidə söküntü işləri aparacaq şirkət sakinlərlə danışıqlara başlayacaq.

**Daşınmaz əmlak məsələləri üzrə ekspert, "Rieltorlar Assosiasiyası" İctimai Birliyinin sədri Elnur Azadov "Şərq"ə açıqlamasında deyib ki, istismar müddəti bitmiş evlərin sökülməsi və yeni binaların inşa edilməsi qanunvericiliklə tənzimlənən məsələdir.**
Ekspertin sözlərinə görə, qanunvericilikdə hər bir vətəndaşın evi üçün onun istəyinə uyğun kompensasiyanın ödənilməsi yer alıb. Ya alternativ əmlak verilməlidir, ya da ki müəyyən razılaşma əldə edilməlidir: "Sadəcə olaraq qanunda öz əksini tapan maddələr bir çox hallarda vətəndaşları və ya tikinti şirkətlərini qane etmədiyi üçün hər iki tərəf daha çox qazanc əldə etməyə çalışır. Bütün bunlar da təbiidir.

Xatırlayırsınızsa, 2016-cı ildə Nazirlər Kabinetinin 86 saylı qərarından sonra paytaxtın rayonlarında söküntü bumu başladı. Qərara görə, rayonların ərazilərində qəzalı vəziyyətdə olan, istismar müddəti başa çatmış tikintilər sökülməli və yenisi ilə əvəz edilməli idi. Bu qərardan sonra pilot layihələrin tikintisi zamanı, konkret olaraq 2016-2019-cu illərdə Bakıda tikinti sektorunda xaos, hərc-məclik baş alıb gedirdi. Vətəndaşlar tikinti şirkətlərindən daha çox aidiyyəti qurumları günahlandırır, haqlarını onlardan tələb edirdilər. Çünki o zaman söküntü prosesi müvafiq icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilirdi. Vətəndaşlarla danışıqlar zamanı da icra nümayəndələri iştirak edirdi deyə, tikinti şirkətləri mübahisələrdən kənarda qala bilirdi.

**Bəzi hallarda MTK-lar söküləcək binaların sakinləri ilə yazılı müqavilə bağlamadan insanları kirayə köçürməyə, yaxud da qəzalı binanın iki addımlığında yeni bina inşa etməyə başlayırlar**

Haqlı olan vətəndaşlar da var idi, haqsızlar da. 2 otaqlı mənzili üçün 100 min manat tələb edən də var idi, verilən pula qane olan da. Amma bu kimi problemlər kütləviləşdiyindən, çəkişmələr qarşısıalınmaz hal aldığından bu qərar ləğv edildi. 2019-cu ildən sərəncamların verilməsi Bakı Şəhər İcra Hakimiyyətindən alınaraq, Arxitektura Komitəsinə verildi. Və hazırda icra hakimiyyətləri vətəndaşlarla danışıq və razılaşma məsələsində iştirak etmir. Tikinti şirkətləri bina tikmək üçün əlverişli yer müəyyən edərək ərazinin bərpası məqsədilə müvafiq qurumlara müraciət edərək tikintiyə razılıq alır. Həmin ərazidə isə sənədsiz yaşayan, qeydiyyatda olan, lakin mülkiyyət hüququ olmayan vətəndaşlar olduqda tikinti şirkətləri həmin sakinləri sıxışdırmağa çalışır. Bu zaman da MTK ilə vətəndaşlar arasında ciddi narazılıq yaranır".

*Ekspertin sözlərinə görə, hansısa qəzalı binanı söküb yerində çoxmərtəbəli bina tikmək istəyən MTK-ların güclü maliyyəsi olmalıdır:* "Bəzən vətəndaşlar şəxsi mənzilləri üçün artıq pul, evlərinin ölçüsündən böyük mənzillə təmin olunmaq istəyirlər. Tikinti şirkətləri isə bu halda vəsaitlərinin çatmadığı iddiası ilə vətəndaşları məhkəmələrə verirlər. Bu, düzgün yanaşma deyil. Əgər vətəndaşların maraqlarını təmin edəcək, onları razı salacaq maddi vəsaitin yoxdursa, bu qədər yükün altına girmək düzgün deyil".

E.Azadov deyib ki, bəzi hallarda MTK-lar söküləcək binaların sakinləri ilə razılaşmadan, onlarla yazılı müqavilə bağlamadan insanları kirayə köçürməyə, yaxud da qəzalı binanın iki addımlığında yeni bina inşa etməyə başlayırlar: "Mənzillərin bölüşdürülməsi zamanı mübahisə yarananda isə məsuliyyətdən boyun qaçırmağa çalışırlar. Halbuki MTK-ların müvafiq qurumlarla razılaşdırılmış layihə sənədləri varsa, nəzərdə tutulan bina sökülməli və sakinlər yeni inşa edilən binada tam təmirli mənzillə təmin olunmalıdır. Tikinti şirkətinin maddi vəsaiti yetərli olmadıqda o layihəni müəyyən müddətə dondura və yaxud da başqa bir investor taparaq işin icrasını ona həvalə edə bilər. Yaranan mübahisə fonunda digər investorların həmin ərazini alıb-almayacağı da sual doğurur. Faktiki olaraq MTK-nın köhnə binanın sakinlərini yeni binanın tikintisini dayandırmaqla hədələməsi özbaşınalıqdır. Sözün düzü, bu kimi məsələlərdə vətəndaşların əziyyət çəkməsinin əsas səbəbi məlumatsızlıqdır. Söküntü işlərinin aparılacağı binaların sakinləri əvvəlcədən qarşılıqlı razılıq əldə olunmasına nail olmalıdır. MTK-lar tikintiyə başlamadan əvvəl vətəndaşları məlumatlandırmalı və niyyətlərini bəyan etməlidir. Vətəndaşlarla qarşılıqlı razılaşma və yazılı müqavilə olmadan onların binalarında söküntüyə başlamaq, normadan yaxın məsafədə yeni bina inşa etmək qanuna ziddir".

Birlik sədrinin sözlərinə görə, söküntü zamanı ən çox narazılıq yaradan məsələlərdən biri MTK-ların artırmalara görə kompensasiya ödəmək istəməməsidir. E.Azadovun fikrincə, tikinti şirkətləri vətəndaşları razı salmaq üçün artırmalara görə də kompensasiya ödəməlidir: "Artırmalar qanunsuz hesab olunsa da, vətəndaş yaşadığı mənzilə sığışmadığı üçün faktiki sahəni genişləndirib. Yəni vətəndaş özünün mənzil şəraitini yaxşılaşdırmaq məqsədilə bu addımı atıb. Və tikinti şirkətləri ərazidə peyda olana qədər də həmin artırmadan istifadə edərək yaşayıb. Uzun illər keçməsinə baxmayaraq dövlət də ona müdaxilə etməyib. Yəni artırmadan öz evi kimi istifadə edib. Bu illər ərzində binalara edilən artırmalar sökülməyibsə, deməli ki, dövlət insanların öz mənzil şəraitinin yaxşılaşdırılması haqlarına göz yumub. Bu reallıq fonunda MTK-ların sakinlərin rahatlığını pozması, yerindən-yurdundan etməsi azmış kimi, üstəlik şərt qoyur ki, kompensasiyalar sakinlərə çıxarışda göstərilən kvadratmetrə uyğun veriləcək. Bu heç də ədalətli yanaşma deyil. Mütləq şəkildə tikinti şirkətləri artırmalarla bağlı yaranan mübahisələrdə vətəndaşların maraqlarını təmin etməlidir. MTK-lar onsuz da mənzillərin sahələrini çöldən-çölə hesablayır, faktiki sahəni kiçik verir, təmirin keyfiyyəti standartlara cavab vermir və təhlükəsizliklə bağlı da heç bir zəmanət vermir. Mənzil istismara verildikdən sonra konkret tarif qoyur ki, kvadratmetrinə 0,80 qəpik ödəməlisən. Halbuki vətəndaşların öz binalarında belə bir xərci yox idi. Bütün bunları nəzərə alaraq tövsiyə edirəm ki, vətəndaşlar tikinti şirkətləri ilə danışığa hüquqşünasların iştirakı ilə getsin. Və hüquqlarının müdafiəsi üçün razılığı yazılı şəkildə aparsınlar. Əks halda məhkəmə çəkişmələrində itirən tərəf olacaqlar".

*E.Azadov hesab edir ki, mübahisəli əmlakların kompensasiyası ilə bağlı üçüncü tərəf olaraq müstəqil qiymətləndirmə şirkətlərinin iştirakı təmin edilməlidir:* "Bəzi hallarda vətəndaşlar kompensasiyanı bazar qiymətindən bir neçə dəfə çox istəyirlər. Bu da müsbət hal deyil. Qanunvericiliyin tələbinə görə, tərəflər ortaq razılığa gəlməlidir. Təbii ki, mülkiyyət sahibinin hüquqlarının təmin olunması mühüm şərtdir, amma nəzərə almaq lazımdır ki, dəyərindən artıq kompensasiya tikinti şirkətlərinin işini axsada bilər".

**Şəymən Bayramova**



# Saakaşvilini xalq da unudub, Qərb də

## Gürcüstanda hakimiyyətdə olanlar sabiq prezidentin fiziki ölümünə də qol çəkməyə hazırdır

**Gürcüstan Ombudsman Aparatının məsləhətçilərinin həkimi Georgi Qriqoliya deyib ki, hazırda eks-prezident Mixail Saakaşvilinin çəkisi 64 kiloqramdır.**

Onun sözlərinə görə, sabiq prezidentin getdikcə daha çox kilo itirməsi həyatını risk altında qoya bilər. O bildirib ki, siyasətçi arıqlamaqda davam edərsə və 55 kiloqrama düşərsə, o zaman geridönməz proseslər başlayacaq və o, yataq xəstəsi olaraq qalacaq: "Kaxeksiya güclənir. Saakaşvili ilə baş verənlər təbiidir: o, arıqlayır, əzələ və artıq sümük toxumasının məhv edilməsi prosesi gedir. Bu, adekvat müalicə almadığı üçün baş verir".

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Mixail Saakaşvilinin indiki acınacaqlı duruma düşməsi öz səhvidir. Analitik bildirib ki, Saakaşvili Gürcüstana qayıtmamalı idi:** "Bilirdi ki, Gürcüstanda rusyönlü qüvvələr hakimiyyət başındadır. Yəni Saakaşvili bu riskləri götür-qoy edərək ölkəyə qayıtmalı idi. Ancaq Saakaşvili öz təşəbbüsü ilə, yəni Qərbin təlimatı olmadan ölkəsinə dönməyə qərar verdi və döndü. Ancaq problem ondadır ki, Gürcüstanda hakimiyyətdə olanlar sabiq prezidentin fiziki ölümünə də qol çəkməyə hazırdır. Saakaşvili gürcü xalqına inanaraq Gürcüstana qayıtmışdı. Gürcü xalqı isə eks-prezidenti qəbul etmədi və çox güman ki, bundan sonra da qəbul etməyəcək. Saakaşivilinin indiki vəziyyəti, səhhəti gürcüləri maraqlandırmır. Gürcü xalqı gündəlik iş-gücündədir, iqtisadi durum onlar üçün daha prioritetdir. Demək olar ki, Saakaşvili həm öz xalqı, həm də Qərb tərəfindən artıq unudulub və ölümə tərk edilib. Tbilisi hökuməti nə Avropa İttifaqından, nə də ABŞ-dən gələn tələb və təkliflərə məhəl qoymadı. Baş nazir İ.Qaribaşvili açıq formada dedi ki, Saakaşvilinin səhhəti, durumu hökumət üçün maraqlı deyil".

**İsmayıl**

# 517 nəfərə yardım göstərib

## Azərbaycanın hərbi həkimləri Türkiyədə 81 cərrahi əməliyyat icra edib



**Azərbaycanın hərbi həkimləri Türkiyədə ümumilikdə 81 cərrahi əməliyyat icra edib, 517 nəfərə isə ambulator yardım göstərib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, hərbi həkimlərimiz Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərib.

*Qeyd edək ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Türkiyəyə ezam olunan Azərbaycan Ordusunun hərbi tibb personalı Kahramanmaraşda fəaliyyətini başa vuraraq Vətənə qayıdıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

# Ermənilərin tirajladığı yalanlar ifşa olundu

## Xarici jurnalistlər Laçın-Xankəndi yolundakı real vəziyyəti gözləri ilə gördülər



**Ermənistanın təbliğat maşını tərəfindən fasiləsiz uydurulan yalan informasiyalara qarşı Azərbaycan tərəfindən mühüm addımlar atılmaqdadır. Bu istiqamətdə həyata keçirilən önəmli işlərdən biri də xarici ölkələrin nümayəndələrinin, əcnəbi deputatların və media nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə davamlı səfərlərini təşkil etməkdir. Bununla xarici ölkə təmsilçiləri həm bölgədə aparılan sürətli bərpa-quruculuq işləri ilə bağlı məlumatlandırılır, həm də erməni vəhşiliyinin izləri ilə yerində tanış edilirlər. Digər mühüm məqamlardan biri də Laçın yolunda, Şuşa-Xankəndi yolunda aylardır keçirilən aksiya ətrafında cərəyan edən proseslərdir.**

Ermənistan tərəfi və erməni lobbisi israrla aksiyanın guya, "hökumət tərəfindən təşkil olunduğunu", yolun "bağlandığını", Qarabağda yaşayan ermənilərin "blokadaya" düşdüyünü iddia edirlər. Xarici ölkə nümayəndələrinin və media təmsilçilərinin Qarabağa səfərinin təşkil olunması bu yalanların üzə çıxması və dünya ictimaiyyətinə çatdırılması baxımından da xüsusi önəm kəsb edir. Fevralın 27-də xarici media nümayəndələri Laçın-Xankəndi yolunda keçirilən aksiyanı işıqlandırmaq üçün hadisə yerinə gəliblər. Kanada, İspaniya, Türkiyə, ABŞ, Böyük Britaniyadan olan media nümayəndələri aksiya iştirakçılarından müsahibələr alıb, aksiyanın gedişi, keçirilmə səbəbləri barədə məlumat əldə ediblər. Onlar Laçın-Xankəndi yolunda sərbəst hərəkətin təmin edilməsinin şahidi olub, aksiya ərazisindən çəkilişlər ediblər. Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində keçirilən dinc aksiya yerinə gələn britaniyalı jurnalist Robert Parker deyib ki, Qarabağda demək olar hər şey dağıdılıb: "Qarabağa, Şuşa şəhərinə ilk dəfədir səfər edirəm. Dükanlar, evlər, mədəni abidələr dağıdılıb". Qarabağın təbiətinin, dağların mənzərəsinin çox gözəl olduğunu söyləyən R.Parker qeyd edib: "Mən, ümumiyyətlə, Azərbaycana on il əvvəl səfər etmişəm. Buraya gəldiyim üçün çox xoşbəxtəm və qürur duyuram. Region füsunkar təbiəti ilə insanı heyran edir. İnanıram ki, burada olan dağıntılar tezliklə bərpa ediləcək". Dinc aksiya yerinə gələn İspaniyanın "Expansion" qəzetinin müxbiri İqnasio Faes Reyna da söyləyib ki, onlar ekoproblem haqqında daha çox məlumat almaq istəyirlər: "Biz bir az əvvəl buraya, aksiya ərazisinə gəlmişik. Burada gənclərin ətraf mühitin qorunması üçün etiraz aksiyası keçirdiklərini görürük. Ümid edirəm ki, problem tezliklə öz həllini tapacaq. Biz buradakı ekoloji problem haqqında daha çox məlumat almaq istərdik".

Ekoaksiya ərazisinə gələn digər ispaniyalı jurnalist David Lopez Frias Gordon söyləyib ki, avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər və heç bir əngəldən, blokadadan söhbət getmir: "Biz Azərbaycana ilk dəfədir səfər etmişik. Burada nəyin baş verdiyini görmək üçün gəlmişik. Biz burada insanların etiraz aksiyası keçirdiyini görürük. Azərbaycandan bir çox insanlar bizə yayılan xəbərlərin yalan olduğunu söyləyirlər. Biz burada bunun bir daha şahidi olduq. Avtomobillər buradan maneəsiz şəkildə keçir. Biz, sadəcə, insanların təbiəti qorumaq üçün etiraz aksiyası keçirdiklərini görürük".

Ölkəmizdə rəsmi səfərdə olan Meksika Parlamentinin Deputatlar Palatasının Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Alberto Viyya Viyyeqasın başçılıq etdiyi parlament nümayəndə heyəti də Şuşa şəhərində olub. Səfər zamanı qonaqlara Şuşa şəhərinin tarixi, işğal dövründəki vəziyyəti və bu gün Şuşada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası haqqında məlumat verilib. Səfər çərçivəsində qonaqlar Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa məscidləri və digər abidələrlə tanış olublar, Şuşanın Qala divarlarına, Şəhər meydanına baş çəkiblər. Onlara Şəhər meydanı, orada qoyulmuş Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir Hacıbəylinin heykəllərinin işğal dövründə ermənilər tərəfindən güllələnməsi barədə məlumat verilib. Sonra qonaqlar Cıdır düzündə olublar. Bildirilib ki, bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, Laçın-Xankəndi yolunda heç bir "blokada"nın olmaması ilə bağlı məlumatlandırmağımıza baxmayaraq, Ermənistanın yalanı üzərində qurulmuş informasiyalar bəzi hallarda beynəlxalq ictimaiyyətin müzakirə mövzusu olur. Deputat diqqətə çatdırıb ki, bu yol vasitəsilə hər gün humanitar yüklər daşınır, avtomobillərlə humanitar məqsədlər üçün hərəkət olunur: "Bəlli məsələdir ki, aksiyaçılarımızın məqsədi təbiəti qorumaq və ölkəmizin milli sərvətlərinin talanmasını dayandırmaqdır. Laçın yolunda aksiya davam etdiyi müddətdə bu yoldan qeyri-humanitar yüklərin keçirilməsinə icazə verilməyib. Kanada, ABŞ, Böyük Britaniya və s. ölkələrdən gəlmiş bir qrup media nümayəndələri də Laçın-Xankəndi yolundakı real vəziyyət ilə tanış ola biliblər. Məhz xarici jurnalistlərin bu yola gəlişi zamanı humanitar yüklərin daşınması və aksiyaçılarımızın etdiyi çağırışlar Ermənistanın tirajladığı məlumatların yalan olduğunu bir daha isbatlayıb".

**Parlament üzvü bildirib ki, Ermənistan torpaqlarımızı işğalda saxladığı 30 il ərzində Qarabağda daşı-daş üstə qoymayıb, rayonları, kəndləri yerlə-yeksan edib:** "Məscidlərimiz dağıdılıb, təhqir olunub. Bu ərazilərə səfər edən jurnalistlər və digər xarici qonaqlarda ermənilərin dağıdıcı topluma, azərbaycanlıların isə sülhpərvər və yaradıcı xalq olduğuna əminlik yaranır. Təbii ki, işğaldan azad olunmuş ərazilərə səfər edən xarici media nümayəndələri öz ölkələrində çıxan mətbuat orqanlarında bu ərazilərdə baş verən hadisələr haqqında reallığı qələmə alacaqlar. Bu da dünya ictimaiyyətinin mövcud vəziyyətlə məlumatlandırılması baxımından böyük əhəmiyyət daşıyır. Hesab edirəm, belə səfərlər mütəmadi təşkil olunmalıdır. Xarici media əməkdaşlarının əli ilə Ermənistanın əsl üzünü dünyaya tanıtmalıyıq".

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Tək qorunmanın yolu peyvəndləmədir

## Qızılcaya yoluxmada kəskin artım müşahidə edilir

**Hazırda Avropa regionunda qızılca xəstəliyinə yoluxma hallarının sayında kəskin artım müşahidə edilir. Bu barədə ÜST-nin Azərbaycandakı nümayəndəliyindən məlumat verilib. Belə ki, 2021-ci ildə əgər 159 qızılcaya yoluxma halı qeydə alınmışdırsa, 2022-ci ildə bu say 904-ə çatıb. ÜST-nin Azərbaycandakı nümayəndəliyi qızılca və digər peyvəndlə qarşısı alına bilən xəstəliklərin yayılmasını önləmək məqsədilə ölkələri uşaqlar da daxil olmaqla peyvənddən kənarda qalmış şəxslərin immunizasiya olunması üçün yerli tədbirləri gücləndirməyə çağırıb.**



### Pandemiyadan sonra toplumun immuniteti zəifləyib

Pediatr Ləman Cəfərova da "Şərq"ə açıqlamasında ötən il peyvəndlə qorunan xəstəliklərin statistikasında ciddi artım müşahidə edildiyini təsdiqləyib. Onun sözlərinə görə, bunun səbəbi COVID-19 pandemiyası müddətində toplum immunitetinin zəifləməsidir: "Uzun müddət maskadan istifadə etmək, izolyasiya kimi karantin tədbirləri insanların immun sisteminə ciddi təsir edib. Odur ki, sadaladığınız infeksiyalar daha aqressiv və fərqli klinik əlamətlərlə qarşımıza çıxır. Bu, çox təhlükəli haldır və peyvəndin aktuallığını daha da artırır. Digər bir səbəb isə pandemiya dövründə digər planlı peyvəndlərin ləngidilməsi və ya təxirə salınmasıdır. Qızılca xüsusilə uşaqlıqda çox rast gəlinən bir yoluxucu xəstəlikdir. Bu səbəbdən də körpəlik və uşaqlıq dövründə peyvəndləri qaçırmamaq, yoluxma ehtimalına diqqət yetirmək və infeksiyalara qarşı gigiyena qaydalarına riayət etmək böyük əhəmiyyət kəsb edir. Qızılca xüsusilə qış və yaz aylarında müşahidə olunur. Bu, məktəbyaşlı uşaqlarda yoluxma riskini artırır. Məhz buna görə də məktəb dövründə edilən qızılca peyvəndi orqanizmin immuniteti üçün çox vacibdir".

**Pediatr deyib ki, qızılca əvvəlcə soyuqdəymə və ya qrip kimi başlayır və hərarət, aralıqlı və davamlı öskürək, burun axması, gözlərdə qızartı, işığa baxa bilməmək, konyuktivit (gözdə qaşınma, qızartı) kimi əlamətlərlə müşahidə olunur:** "Səpkinin görünməsindən 2 gün əvvəl, yanaqda, alt azı dişləri səviyyəsində çəhrayı-qırmızı halqa ilə əhatə olunmuş 1 mm-lik mavi-ağ ləkələr meydana gəlir. Bu ləkələr bəzən ağızın digər nahiyələrində də yayıla bilir. 3 gün ərzində qollara, ayaqlara və gövdəyə yayılır. Üzdə və boyunda səpkilər birləşə bilər. Dəridə ödem yaranır, üz şişir. Xəstəliyin şiddəti adətən səpkilərin ölçüsü ilə mütənasib olur. Sonra səpkilər qəhvəyi olur və yox olur. Dəri artıq qabıqlanmağa başlayır.

Onu da deyim ki, qızılca ant4roponoz xəstəlikdir və çox yoluxucudur. Qızılca xəstəsi ilə təmasda olan hər 100 insandan 95-96-sı xəstələnir. Qızılca xəstəliyi hava-damcı yolu ilə öskürmə və asqırma zamanı ötürülür. Qızılca törədicisi havada və səthlərdə 2 saatadək aktiv qala bilər. Qızılcaya yoluxan şəxs səpkilər başlamazdan əvvəlki 3-4 gün və başladıqdan sonrakı 4-5 gün ərzində xəstəliyi başqalarına yoluxdura bilir. Qızılca virusu yuxarı tənəffüs yollarının ifrazatında olur. Xəstə asqırdığı və ya öskürdüyü zaman ətrafa yayılır. Havada və ya yoluxduğu səthdə 2 saat müddətində başqalarına yoluxa bilir. Xəstəlik bütün yaşlarda, ən çox isə məktəbəqədər yaşlı uşaqlarda rast gəlinir".

Qızılcanın fəsadlarına gəldikdə isə mütəxəssis deyib ki, xəstəliyin təhlükəli əlamətlərindən də biri xəstələrin bir müddət qidalanmaması və vitamin itkisi səbəbindən sonradan daha öldürücü ola biləcək ağırlaşmalara təkan verməsidir: "Qızılca ilə xəstələnən insan işə və məktəbə gedə bilməyəcək şəkildə halsız və hərarəti yüksək olur. Eyni zamanda bu xəstəliyin səbəb olduğu fəsadları göz önünə almaq lazımdır. Xəstəlik diqqətə alınmazsa ağciyər iltihabı (pnevmoniya), orta qulaq iltihabı (otit), beyin qişalarının iltihabı (ensefalit), ürək əzələsinin iltihabı (miokardit) və s. kimi fəsadlarla nəticələnə bilər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, hər 100 qızılca xəstəsindən ən azı birində ölüm və ya ağırlaşma halı qeydə alınır. Qızılca xəstəliyi adətən (yüngül gedişli) evdə müalicə olunur. Yalnız ağır xəstələr və fəsadlaşması olanlar hospitalizasiya olunurlar. Əsas diqqət qulluğun təşkilinə və düzgün qidalanmaya verilməlidir. Xəstənin otağı isti və işıqlı olmalı, havası tez-tez dəyişdirilməlidir. Xəstənin istirahət etməsi və simptomatik müalicə alması məsləhət görülür. Qızılca, viruslar tərəfindən törədildiyi üçün fəsad olmadığı zaman antibiotik istifadə etməyə ehtiyac yoxdur. Vaxtında və düzgün müalicə etdikdə qızılcanın proqnozu adətən yaxşı olur".

**Həkimin sözlərinə görə, qızılca ilə xəstələnən insanlar ömür boyu immunitet qazanırlar və bir daha bu xəstəliyə yoluxmurlar. Qızılca xəstəliyindən və buna bağlı olaraq ortaya çıxan xəstəliklərdən qorunmanın tək yolu isə peyvəndləmədir:** "Təkrarçılıq etmək istəmirəm, amma deməsəm də olmaz. Qızılca peyvəndi xəstəliyə qarşı son dərəcə etibarlı və təsirli bir peyvənddir. Ancaq peyvəndləmə yolu ilə yoluxmanın qarşısını tam almaq mümkündür. Qızılcaya qarşı peyvənd olunmayanların sayının artması və epidemioloji nəzarətin zəifləməsi, qızılca ilə ağırlaşmaların və qızılca səbəbindən uşaq ölümünün artmasına gətirib çıxaracaq. Peyvəndlər mümkün qədər peyvənd təqvimlərinə müvafiq olan vaxtlarda yerinə yetirilməlidir. Peyvənd sayəsində orqanizmdə infeksion xəstəliklərə qarşı immunitet yaranır, nəticədə həmin xəstəliklərə yoluxma riski azalır və xəstəliyin yarada biləcəyi ağırlaşmaların qarşısı alınır. İmmunlaşma sayəsində dünyada hər il orta hesabla 2-3 milyon nəfər ölüm təhlükəsindən xilas olur. Peyvənd orqanizmin təbii müdafiə qüvvələrini stimullaşdıraraq, onu xəstəliyə qarşı daha səmərəli mübarizə aparmaq üçün hazırlayır. Peyvənd sayəsində orqanizmdə immun reaksiya formalaşır və gələcəkdə insan virus və bakteriyaya yoluxsa belə, immun sistemi onlarla mübarizəyə hazır olur. Gecikdirilən peyvəndlər uşaqları xəstəliklərə qarşı müdafiəsiz edir. Ölkəmizdə qızılcaya qarşı peyvənd Səhiyyə Nazirliyinin peyvənd təqviminə uyğun olaraq 12-ci ayın sonunda və ibtidai məktəbin 1-ci sinfində qızılca-məxmərək-parotit üçlü peyvənd şəklində aparılır".

Şəymən

# Anadolu liseyi ən uyğun təhsil ocağıdır

## Türkiyədə təhsili yarımçıq qalmış şagirdlər Azərbaycanda oxuyacaqlar



**Türkiyədə zəlzələ bölgəsində zərərçəkən Türkiyə vətəndaşı olan şagirdlər Azərbaycanda birinci dərəcəli yaxınlarının yanına gəlib. Bu barədə "Trend"in sorğusuna cavab olaraq, Türkiyənin Azərbaycandakı Səfirliyinin Təhsil Müşavirliyindən bildirilib.**

Qeyd edilib ki, hazırda onlardan 20 şagird Bakı Türk Anadolu liseyində təhsil alır. Xatırladaq ki, fevralın 6-da Türkiyədə səhər saatlarında 7.7 və 7.6 bal gücündə iki zəlzələ baş verib. Dərinliyi 7 kilometr olduğu müəyyən edilən zəlzələ Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş vilayətlərində ciddi dağıntılara səbəb olub. Zəlzələ bölgəsində yaşamış əhali ərazidən təxliyə edilib, o cümlədən də azərbaycanlılar arasında ölkəyə qayıdanlar var.

**Bakıda təhsilini davam etdirəcək şagirdlər hansı çətinliklə üzləşə bilər? Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, ölkələrimiz və xalqlar arasındakı qardaşlıq, qarşılıqlı yardımlaşma təhsil sahəsində də özünü göstərir:**

- Əlbəttə, soydaşlarımızın ailəliklə qardaş Türkiyədən Azərbaycana gəlməsi təbii fəlakətin nəticələri ilə bağlıdır. Azərbaycan Elm və Təhsil Nazirliyi üzərinə düşən vəzifəni yerinə yetirərək Türkiyədə təhsili yarımçıq qalmış şagirdlərə Azərbaycanda təhsillərini davam etdirmək imkanı yaradır. Zəlzələ bölgəsindən gələn şagirdlər Türkiyə təhsil sisteminə daha çox uyğun olduğu üçün Anadolu liseyinə yerləşdirilib. Bu liseyin tədris proqramı Türkiyə təhsilinə uyğundur. Tədris proqramında müəyyən fərqlər dil və ədəbiyyat fənləri üzrə ola bilər. Lakin ümumi fənlərdə fərqlilik demək olar ki, yoxdur. Şagirdlərin yerləşdirilməsi də Azərbaycan və Türkiyə təhsil nazirlikləri arasında imzalanmış sazişə uyğun həyata keçirilir. Ali məktəb tələbələri arasında təhsilini Azərbaycanda davam etdirmək istəyənlərsə, Türkiyədə müvəqqəti məskunlaşmış şəxslərdirsə, burada mütləq qeydiyyata düşməlidirlər.

**E.Əfəndi qeyd etdi ki, Türkiyədən təxliyə edilmiş ailələrin övladlarının biliyinin qiymətləndirilməsində güzəştlər olmalıdır:**

- Nəzərə alınmalıdır ki, bu şagirdlər zəlzələ fəlakətini yaşamış uşaqlardır. Onlarla həssas davranılmalıdır. Tədris prosesində, illik qiymətləndirmədə də bu amil diqqətə alınmalıdır.

Məlahət Rzayeva

# Bakıya axın daha da sürətlənib

## Böyük şəhərlərdə əhali sıxlığının artmasına təbii proses kimi baxmaq olar, ancaq başqa səbəblər də var



*Xəstə adam yıxıla-yıxıla paytaxta sənəd ardınca gəlir. Regional təhsil idarələri, imtahan mərkəzləri, mədəniyyət idarələri, hətta turizm idarələri də yaradılıb. Lakin yenə də mərkəz Bakıdır*

**Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyi Bakıya qeyri-təbii axının olması, regionların boşalması və bunun yaratdığı problemlər, eləcə də prosesin qarşısının alınması ilə bağlı təkliflərlə çıxış edib. İctimai Birliyin bununla bağlı mətbuata açıqlamasında qeyd olunur ki, hazırda ən ciddi problemlərdən biri Bakıya axının davam etməsidir: "Ölkə ərazisinin 2,5 faizini təşkil edən paytaxt əhalinin 25 faizdən çoxunu özündə cəmləşdirib.**

Qeyri-rəsmi məlumatlara görə isə bu gün Bakıda təqribən 3 milyondan çox insan daimi yaşayır. Hər gün regionlardan 500 mindən çox insan paytaxta qısamüddətli giriş-çıxış edir. Paytaxtın avtomobil yollarında sutka ərzində 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Son 30 ildə qeyri-təbii urbanizasiya paytaxtda və bütövlükdə ölkədə ciddi problemlərə səbəb olub. Kəndlərdə əhalinin sayı sürətlə azalıb. Bu da bölgələrdə iqtisadi inkişafa, kənd təsərrüfatı məhsullarının istehsalına mənfi təsir göstərib. Paytaxtın həddən artıq "yüklənməsi" ekoloji vəziyyətin pisləşməsi, çirklənmə, tıxaclar və s. kimi ciddi problemlərin yaranmasına səbəb olub. Tənzimlənməyən miqrasiya Bakının və ətraf qəsəbələrin görünüşünə də təsirsiz ötüşməyib. Eyni zamanda kommunal təchizatda ciddi yüklənmələr müşahidə olunur. Qeydiyyatsız yaşama paytaxtda ictimai sabitlik baxımından da problemlər yaradır. Belə ki, hər il Bakıda baş verən cinayət hadisələrinin təqribən 35 faizi digər şəhər və rayonlarda qeydiyyatda olan və Bakıda yaşayan insanlar tərəfindən törədilir.
Vətəndaşlarının az qala 3/1-nin paytaxtda məskunlaşması, əhalinin 15-20 faizinin qeydiyyatsız, qanunsuz tikilən evlərdə yaşaması ilə bağlı tədbirlər görülməli, ciddi fəsadlar yaradan tənzimlənməyən miqrasiyanın qarşısının alınması üçün mübarizə aparılmalıdır. Çünki belə davam edəcəyi təqdirdə gələcəkdə daha ciddi problemlər ortaya çıxa bilər. Tərəddüd etmədən deyə bilərik ki, heç bir ölkədə bu sayda qeydiyyatsız yaşama halları mövcud deyil".

İctimai Birlik mövcud vəziyyətin hərtərəfli araşdırılmasını zəruri hesab edir. Həmçinin Bakı şəhərinə axının qarşısını almaq üçün inkişaf etmiş ölkələrin təcrübəsindən çıxış edərək təklif irəli sürüb:

1. Əsas istiqamət kimi regionlarda yeni iş yerlərinin açılması və investorların regionlara cəlb edilməsi təşviq olunmalıdır.
2. Ali təhsil müəssisələrinin Lənkəran, Gəncə, Quba, Sabirabad, Şirvan, Şamaxı, Şuşa kimi yaşayış məntəqələrinə köçürülməsi təmin edilsin. Özəl ali təhsil müəssisələrinin regionlarda açılması stimullaşdırılmalıdır.
3. Hüquq-mühafizə orqanlarının mərkəzi orqanları istisna olunmaqla digər nazirliklər rayonlara köçürülməlidir. Məsələn, Mədəniyyət Nazirliyi Şuşaya, Kənd Təsərrüfatı Nazirliyi Qarabağ və ya Aran bölgəsinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Qubaya və ya Zaqatalaya, Müdafiə Nazirliyi Gəncə və ya Yevlaxa köçürülə bilər.
4. Böyük istehsal müəssisələri yaratmaq istəyənlərin bölgələrə istiqamətləndirilməsi təmin edilməlidir.
5. Regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə güzəştli kretidlərin verilməsi təşviq edilməlidir.

**Paytaxta əhali axınının qarşısının alınması üçün irəli sürülən təkliflər, ekspertlər tərəfindən, əsasən dəstəklənir. Lakin bəzi başqa təkliflər də var. İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında paytaxtda əhali sıxlığı probleminin yeni olmadığını dedi:**

- Yaşlı, hətta orta nəslin nümayəndələri də yəqin xatırlayar ki, sovet vaxtı Bakıda qeydiyyata düşmək çox çətin idi. Bunun üçün tutarlı səbəb olmalıydı. Mərkəzi Komitənin təyinatı ilə Bakıya hansısa vəzifəyə çağırılanlar, kadr ehtiyacı yarandıqda, konkret sahədə işləyənlər paytaxta işə dəvət edildikdə və sair oxşar hallarda qeydiyyat aparılırdı. Amma konkret işi, vəzifəsi olmayan birinin heç nədən, tutarlı bir səbəb olmadan Bakıda qeydiyyata düşməsi müşkül idi. Sovet illərində hətta ali məktəbi bitirənlərə də rayonlara təyinat verilirdi, 2 il orada işləməli olurdular. 2 il işlədikdən sonra kimlərsə Bakıya qayıdırdı, kimlərsə də rayonda qalıb işləməkdə davam edirdi. Ümumiyyətlə, adətən ali məktəbi bitirən şəxs hansı rayondan idisə, o rayona da təyinat alırdı, ya da bunun üçün xahiş-minnət edirdi. Bu sistem paytaxtda əhalinin artmasının qarşısını müəyyən qədər alırdı. Lakin XX əsrin sonlarından başlayaraq məlum hadisələr fonunda paytaxta yenə əhali axını sürətləndi. Regionlarda iş yerlərinin olmaması, yaşayış şərtlərinin ağırlaşması, Bakıda isə məlum tikinti bumu bu axını getdikcə sürətləndirdi. Amma ümumilikdə götürdükdə, böyük şəhərlərdə əhali sıxlığının artmasına təbii proses kimi də baxmaq olar. Burda da bir neçə səbəb var. Böyük şəhərlər sənaye mərkəzləri hesab edilir, şəhərdə iş tapmaq və qazanc əldə etmək üçün imkanlar həmişə geniş olur. O yerlərdə şəhərdə sıxlıq olmur, hansı ki sənaye və istehsal müəssisələri regionlara da yayılır, təkcə böyük şəhərlərdə deyil, kiçiklərdə də təhsil almaq və işləmək imkanları mövcuddur. Bu da güclü iqtisadiyyata malik, həmçinin iqtisadi imkanların bərabər paylandığı ölkələrdə mümkündür. Əgər sənaye və istehsalın böyük hissəsi bir şəhərdə cəmləşibsə, təbii ki, əhali ora axın edəcək. Təkcə sənaye, iş yerləri, qazanc əldə etmək baxımından deyil, sosial şərait, normal infrastruktur, mədəni mərkəzlər yoxdursa, əhali yaşadığı bölgəni yavaş-yavaş tərk etməyə məcbur olur. Fikir verin, bölgələrdən əhali müayinə olunmaq üçün Bakıya gəlir. Çünki regionlarda Diaqnostika Mərkəzləri tikilib istifadəyə verilsə də, kadr çatışmazlığı var. Bundan əlavə şəkərli diabet xəstəsi əlilliyin təyinatı üçün mütləq Bakıya gəlməli, paytaxtda xəstəxanada müalicə olunmalıdır ki, ona əlillik təyin edilsin. Yəni bu işi o adamın yaşadığı, qeydiyyatda olduğu rayonda niyə etmək mümkün deyil? Çünki iş bu cür anormal qurulub. Xəstə adam yıxıla-yıxıla paytaxta sənəd ardınca gəlir. Regional təhsil idarələri, imtahan mərkəzləri, mədəniyyət idarələri, hətta turizm idarələri də yaradılıb. Lakin yenə də mərkəz Bakıdır. Bakının yükünü azaltmağın birinci şərti regionlarda əhalinin məşğulluğunun təmin edilməsidir. Həmçinin infrastrukturun müasirləşməsi, sosial şəraitin yaxşılaşmasıdır. Təsəvvür edin, hələ də təbii qaz olmayan, əhalinin odun yandıraraq qızındığı və isti suyu da bu yolla əldə etdiyi kəndlərimiz var. O kəndin camaatı, əlbəttə çalışacaq, can atacaq ki, daha yaxşı şəraiti olan yerə, başqa şəhərə köçsün, həm də bu, elə bir şəhər olsun ki, orada işləyib qazanc əldə etmək də mümkün olsun. Bu da birinci növbədə Bakıdır.

**İqtisadçı qeyd etdi ki, Bakıda əhali sıxlığının aradan qaldırılması, ümumən ölkənin inkişafına bağlı məsələdir:**

- Əsas məsələlərdən biri məhkəmə-hüquq sisteminin ədalətli fəaliyyətidir. Paytaxtda yenə də az-çox buna nail olmaq mümkündür. Regionlarda isə vəziyyət yaxşı deyil. Deyirik, investorlar regionlara cəlb edilsin. Əgər rayonun icra başçısı özünü "padşah" kimi aparırsa, bütün ixtiyarı əlində saxlayırsa, yaranmış narazılıqda məhkəmə də sahibkarın, investorun deyil, rayon icra hakimyyətinin mövqeyini müdafiə edirsə, investor regionda niyə qalsın?!. Əlbəttə, regiona gedən olmayacaq, əksəriyyət paytaxtda qalmağa üstünlük verəcək.

**Ə.Həsənovun təklifi isə budur:**

- Bakının üzərindən paytaxt statusu götürülməlidir. Paytaxtı köçürmək lazımdır, Yevlaxa, Göyçaya... başqa hansısa bir rayona. Bu təcrübədən bir çox ölkələr istifadə edib, nəticə də müsbət olub. Yeni paytaxtlar inkişaf edib, inkişaf etmiş şəhərlərin sayı artıb. Paytaxt statusu götürülsə, Bakının cəlbediciliyi azalacaq, əhali də yeni paytaxta axın edəcək. Ölkəmizin görün nə qədər infrastruktur layihələri var, işğaldan azad edilmiş torpaqlarla bağlı da həmçinin. Əhalini regionlara yönləndirmək, bu baxımdan çətin olmamalıdır. Təbii ki, haqqında danışdığımız problemlər nəzərə alınıb həll edilməklə.

*Qeyd edək ki, Bakıdakı sıxlıq probleminə sosial şəbəkə istifadəçiləri də rəy bildirib. Bəzisini təqdim edirik:*

**Kamil Həmidov:** Nə qədər qəribə səslənsə də, sürətli dəmir yolu xətlərinin çoxaldılması Bakıdan əhalinin rayonlara qayıdışına səbəb ola bilər. İş yerləri Bakıdadır, bu şəxslərin əksriyyəti ailəlikcə şəhərdə kirayə yaşayırlar. Sürətli nəqliyyat olarsa, onlar ailələrini öz evlərinə qaytarar və özləri də rahat şəkildə rayon-şəhər nəqliyyatı rejimindən istifadə edərlər.

**Şəkili:** Bakıya əhalinin axınının əsas səbəbi işsizlik problemi ilə əlaqədardır. Əhalinin Bakıya axınının yaranmasının əsas səbəbkarları regionlara təyin olunan icra başçılarıdır. İcra başçısı tərəfindən bir adama 10 vəzifə, yəni işin icrası tapşırılır, 10 adama isə bir iş verilmir. Şəki "Kommunaxoz"un müdirinə düz 10 pullu vəzifə tapşırılıb. Şəki Bələdiyyəsinə rəhbərlik edir, qaynı da Bələdiyyədə pul yığandır. A qardaş, gəlin, öz gözünüzlə görün. Bakıya axın belə olaraq yaranır!

**Əhməd Qəmbər:** Millət Bakıya axın edər də! İrandan 14000 ton apelsin gəlir, soğan, kartof... Pakistan və sairədən. Amma Astara, Lənkəran kənd camaatına şərait yaradılsa, təsərrüfatlarını gücləndirsələr, o məhsulları özləri paytaxta gətirər. Bədbəxt kənd camatı məhsul becərə bilmir. İran da viruslu apelsini göndərir bizə. Bundan sonra kəndli qalar rayonda?

**Lerik:** Bunun bir yolu var: regionlarda iş yerləri qurmaq və təsərrüfat sahiblərinə icra başçısının əliylə yox, bank yolu ilə köməklik etmək. Hər hektara salyarka pulu, traktor pulu, fəhlə pulu verilir dövlət tərəfindən, amma bədbəxt kəndlini aldadıb 150-200 manat verirlər. Bunu nəzərdə tuturam. Cins heyvanlar verilməlidir camaata, amma məsələn, Lerikdə cins heyvanlar mənimsənilir, əvəzinə yerli, qoca inəklər alınıb verilir, onlar da qışa salamat çıxmır. Onları verənlər bilirlər ki, heyvan qışda öləcək. Bakıda bütün tikililərə kupça verilsin və ondan sonra yeni tikililərə (həyət evlərinə) tikintiyə qadağa qoyulsun, axının qarşısı alınsın. Bunu bilməyə nə var ki?!.

**Məlahət Rzayeva**

# 3 ildən sonra müəllimin 1000 manat maaşı heç nə olacaq

## Nazir real artımlardan deyil, nominal artımlardan danışır

**Elm və təhsil naziri Emin Əmrullayev müəllimlərin əməkhaqqından danışıb. O qeyd edib ki, son 10 ildə müəllimlərin orta aylıq əməkhaqqı məbləği 3 dəfə artıb:**

"Sonuncu artımla müəllimlərin orta aylıq əməkhaqqı 790 manata çatıb. İki-üç ildən sonra müəllimlərin orta aylıq maaşının 1000 manatdan yuxarı olacağını gözləyirik. Hazırda 4 müəllimdən birinin maaşı 1000 manatdan artıqdır".

Qeyd edək ki, fevralın 1-dən diaqnostikası aparılan müəllimlərin maaşı 10 faiz artıb.

**Müəllimlərin əməkhaqlarının artımındakı dinamikanın inkaredilməz olduğunu deyən iqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə təəssüflə bildirib ki, dövlət qurumları real artımlardan deyil, nominal artımlardan danışır:** "Məsələn, 2015-ci ildə müəllim 400 manat əmək haqqı alırdısa, bu gün 800 manat alması 2 dəfə artım demək deyil. Əslində inflyasiyanı tənzimləmək lazımdır. Real inflyasiyanı nəzərə alsaq, görərik ki, bu gün aldığımız 700-800 manat məbləğindəki əməkhaqqı, 2015- ci illərdə alınan 400 manatla bərabər göstəricidir. Ona görə də rəsmi qurumların açıqlama verərkən real göstəricidən istifadə etməsi daha yaxşı olar. Hörmətli təhsil naziri 3 il bundan sonraya proqnozlaşdırma aparır ki, maaşlar 1000 manatdan çox olacaq. Lakin 3 il sonra 1000 manatın dəyəri tamamən dəyişəcək. Hətta bugünkü 700-800 manatın dəyərindən aşağı olacağını proqnozlaşdırıram. Çünki təkcə 2023-cü ildə 15-20 faiz real inflyasiya gözlənilir.

Hökumət bunu 6,9 faiz, Mərkəzi Bank isə 8 faiz proqnozlaşdırır. Yəni həmin 1000 manatın rəsmi rəqəmlərlə belə 70-80 manatı gedəcək. Ancaq qeyri-rəsmi inflyasiyanı nəzərə alsaq, onun 120-130 manatı dəyərsizləşəcək. Yəni rəqəmlər nəyisə ifadə etmir və alıcılıq gücünü nəzərə almadan danışdıqda aldadıcı görsənir".

*Ekspert qeyd edib ki, təhsilə və insan kapitalının inkişafına ciddi diqqət ayırmayan ölkələrdə təhsil sektorundakı əməkhaqqı aşağı olur:* "Çünki bu sahə geridə qalır və ögey yanaşma olur. Hazırda təxminən neft sektorunda orta aylıq əməkhaqqı 4 min manat, maliyyə sektorunda isə 2 min manat təşkil edir. Təhsil sektoru uzun müddətdir iqtisadiyyatda 3 ən ağır vəziyyətdə olan sahələrdən biridir. Bu gün də sözügedən gerilik öz mövqeyini qoruyur. Düzdür, müəyyən bir artım dinamikası var. Xüsusən də, sərf olunan əməyə uyğun qiymətləndirilmə metodologiyası yüksək qiymətləndirilməlidir. Ancaq tariflər hələ də aşağıdır.

Bakı şəhəri və Abşeron yarımadası üzrə məsələyə yanaşsaq, müəllimlərin məvacibləri ilə xərcləri arasında balans olmadığının şahidi olarıq. Düzdür, iddia oluna bilər ki, müəllimlərin hamısı repetitor xidməti göstərir. Əslində bu günə təhsil sisteminə qarşı aparılan ögey siyasətin nəticəsi olaraq, Azərbaycanda repetitor sistemi formalaşdı. Əməkhaqqı almayan müəllim təhsil verməməyə başladı. Bunun nəticəsində də orta təhsildə savadsızlıq artdı. Bu da dolayısı ilə repetitor institutunu formalaşdırdı. İndi isə müəllimlərin əksəriyyəti əməkhaqları artsa belə məktəblərdə tədrisi aşağı səviyyədə aparırlar. Çünki özləri üçün bazar formalaşdırırlar. Normal təhsil ala bilməyən şagirdin valideyni isə məcbur qalır uşağını həmin müəllimin yanına əlavə dərslərə göndərir".



*"Real inflyasiyanı nəzərə alsaq, görərik ki, bu gün aldığımız 700-800 manat məbləğindəki əməkhaqqı, 2015-ci illərdə alınan 400 manatla bərabər göstəricidir"*

**Nihat Müzəffər**



# Hər kəs ictimai nəzarətlə hesablaşmalıdır

## Bələdiyyələrdə idarəetmə problemləri mövcuddur

**"Bələdiyyələrdə qanun pozuntuları bitmək bilmir". Bu barədə "Şərq"ə Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni Hökməli və Qobu bələdiyyələrinin sədrlərinin cərimələnməsindən danışarkən deyib.**

O vurğulayıb ki, məmurların şəffaflığı artırması ilə bağlı dəfələrlə məsələ qaldırmışıq: "İctimai nəzarətlə hesablaşsınlar. Korrupsiyaya qarşı mübarizəni gücləndirsinlər. Bu proses xüsusilə rəhbər şəxslərə aiddir. Amma gördüyümüz kimi, mövcud problemlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir. Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə sanitar-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam edir. Bununla əlaqədar olaraq, Hökməli və Qobu bələdiyyələrinin sədrləri cərimələnib. Əlbəttə ki, xoşagəlməz, yolverilməz haldır. Bu, bələdiyyələrin rəhbər heyətlərinin lazımi səviyyədə formalaşmaması və proseslərə, idarəetməyə hazır olmamaları ucbatından baş verir. İdarəetmə qaydasındadırsa, proseslərdə heç bir problem mövcud olmalı deyil. İndi çatışmazlıq, hər hansı səhvlər mümkündür. İş görülən yerdə səhv olar. Amma bu cür hallara yol verilirsə, deməli, bəzi bələdiyyələr, dövlət qurumlarında sadəcə idarəetmə problemləri mövcuddur. Ona görə də vətəndaş cəmiyyətinə aid olan bələdiyyələr, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatları, media nümayəndələri iki-üç qat məsuliyyətli olmalıdır".

**Sücayət Mehti**

# Elçin Əlibəyli də "Space"dən getdi



**"Space" TV-dən ayrılan daha bir şəxs, sənətşünaslıq üzrə fəlsəfə doktoru, aparıcı Elçin Əlibəyli olub.**

E.Əlibəyli bir neçə həftə öncə kanaldan ayrılıb. Onun "Elin sözü" layihəsinin yayımı da dayandırılıb.

Qeyd edək ki, proqram bundan sonra "Elə çarə" adıyla Kanal S-də efirə gedəcək.

Onu da bildirək ki, ötən günlərdə kanalın yeni rəhbəri vəzifəsi Vado Karovinə tapşırılıb. Onun gəlişindən sonra aparıcı Turan İbrahimov da televiziyanın format dəyişdirməsi səbəbilə kanaldan ayrılıb.

**Elan**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin zabiti Kərimov Elməddin Əhliman oğluna məxsus 0065920 saylı hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 598



## Mingəçevirdə həkim qadının qarın boşluğunda tənzif unudub

**Mingəçevirdə həkim qadının qarın boşluğunda tənzif unudub, cinayət işi açılıb**

Mingəçevirdə xəstənin qarın boşluğunda tənzif unudan həkimlə bağlı cinayət işi açılıb.

Bu barədə "Report"a Mingəçevir Şəhər Prokurorluğundan məlumat verilib.

Qeyd olunub ki, Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında cərrahi əməliyyatın düzgün icra edilməməsi barədə müraciət əsasında şəhər prokurorluğuna araşdırma aparılıb.

*Araşdırma zamanı həmin tibb müəssisəsinin mama-ginekoloqu Leyla Cəfərova tərəfindən Aysel Qurbanovanın üzərində həyata keçirilən cərrahi əməliyyat zamanı qarın boşluğunda tənzif unudulmasına əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Cinayət Məcəlləsinin 314.1-ci (səhlənkarlıq) maddəsi ilə cinayət işi başlanıb. Hazırda istintaq davam edir.*

## Britaniya rəhbər qadınların sayına görə dünyada ikinci yerə yüksəlib



**Böyük Britaniya ölkənin aparıcı kompaniyalarında direktorlar şurasının rəhbəri vəzifəsini tutan qadınların sayına görə yalnız Fransadan geri qalır.**

Azərtac xəbər verir ki, Reuters agentliyi bu barədə məlumatında London Fond Birjasının məruzəsinə istinad edib.

Məlumata görə, aksiyaları London Fond Birjasında dövr edən ən iri 350 kompaniyanın rəhbərliyində qadınların payı 40,2 faizə bərabərdir. Halbuki 11 il əvvəl bu göstərici cəmi 9,5 faiz idi. Birləşmiş Krallıq 40 faizlik hədəfə 2025-ci ilədək çatmağı qarşısına məqsəd qoymuşdu.

2017-ci ildə qüvvəyə minən qanuna görə, kompaniya rəhbərliyində qadınların sayına 40 faizlik kvotanın tətbiq edildiyi Fransadan fərqli olaraq, Böyük Britaniyada zərif cinsin nümayəndələrini rəhbər vəzifələrə təyin etməklə bağlı məcburiyyət yoxdur.



# Ailə avtobusun içində yaşayır

### Zəlzələdən sonra atalarının avtobusu evləri oldu





**Hatayın Antakya bölgəsində yaşayan Akıncı ailəsi zəlzələdən sonra avtobusun içinə sığınıb. Ailə başçısı idarə etdiyi avtobusu mənzilə çevirib və 7 nəfər burada gecəni gündüz, gündüzü də gecə edir. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, Akıncı ailəsinin yaşadığı bina da zəlzələdə dağıntılara məruz qalıb.**

Uşaqlar soyuqda küçədə gecələməsin deyə, ailə başçısı Həsən Akıncı sürücüsü olduğu avtobusu mənzilə çevirib. Oturacaqların bəzisini tamamilə çıxarıb, bəzisinin yerini dəyişdirərək yataq yeri, oturma, istirahət "guşəsi" düzəldib. İşıq çəkib, uşaqların darıxmaması üçün avtobusda televizor da quraşdırıb. Uşaqlardan ən kiçiyi 3 yaşındadı. Yataq yerləri olsa da, yuyunmaq məsələsində çətinlik çəkirlər. İstəkləri konteyner evdir. Həsən Akıncı 48 yaşındadı və 17 ildir sürücülük edir. Zəlzələ gecəsi işdən qayıdan Həsən yaxınlıqdakı parkda yer tapmayıb və avtobusu evdən 500 metr aralıda saxlayıb. "Avtobusu məhəllədə saxlasaydım, dağıntılar altında qalacaqdı. Evə gəldim, yatdım. Zəlzələnin sarsıntısına oyandım. Titrəyişlər ara verdikdə, hamımız binadan çıxmaq üçün pilləkənlərlə aşağı enməyə başladıq. Divarlar aralanmışdı, hər yer şüşə qırıqları, daş-kəsək, tör-töküntü... Qaranlıqda hara ayaq basdığımızı da bilmirdik. Əlimiz, ayağımız yaralanmışdı, qanamışdı. Binanın giriş qapısı dəmirdəndi, sarsıntı zamanı kip örtülmüşdü. Qonşularla nə qədər çalışdıq, aça bilmədik. İkinci mərtəbənin eyvanından küçəyə atlandım, qapını bayır tərəfdən təpiklə açdım. Çox şükür, ailəm də, qonşular da sağ-salamat çıxa bildik", söyləyən Həsən Akıncı ailəsini də, qonşuları da avtobusuna mindirib, sonra isə başqa sakinlərə yardım etməyə gedib. Avtobusda yaşayış üçün şərait yaratmağa başlayıb. İlk günlər çətin olsa da, yavaş-yavaş bu duruma alışıblar. Avtobus-mənzilin xanımı Fatma Akıncı isə deyib ki, evsiz qalmağın çətinliyini sözlə ifadə etmək mümkün deyil: "Çox çətindir, kimsə bizim günümüzə düşməsin. Xörəyi bayırdakı ocaqda bişirirəm. Balon qazında çay dəmləyirik. Ayaqyoluna getmək, yuyunmaq üçün evimizə gedib tez də çıxırıq. Titrəyişlər davam edir, çox qorxuruq. Oğrun-oğrun evə girir, bəzi əşyaları götürürük. Bura bir konteyner ev gətirilsə, uşaqlar da rahat olar. Zəlzələ çox dəhşətli idi. Bir gün avtobusda yaşayacağımı ağlıma da gətirməzdim. Amma neyləyək, dözəcəyik".

**Məlahət**



## Adamın qalıqları köpək balığının qarnında tapılıb

### Onun şəxsiyyətini bədənindəki döymə ilə müəyyən etmək mümkün olub



**Argentinanın cənubundakı Comdoro Rivadavia sahil qəsəbəsində yoxa çıxan Dieqo Barrianın qalıqları balıqçılar tərəfindən tutulan köpək balığının qarnında aşkarlanıb.**

**Yerli mətbuata açıqlamalar verən polis məmuru Daniela Millatruz deyib ki, Barrianın şəxsiyyətini ailəsi tərəfindən bədənindəki döymə ilə müəyyən etmək mümkün olub. Balıqçıların Argentinanın Çubut əyalətində tutduqları köpək balığını təmizləyərkən insan qalıqları aşkarladıqlarını bildirən Millatruz, hadisə ilə bağlı istintaqın davam etdiyini bildirib. Millatruz qeyd edib ki, Barrianın sonuncu dəfə çimərlikdə göründüyü və dənizdə çimdikdən sonra yoxa çıxdığı barədə məlumatı var.**

**Səlahiyyətlilər Barrianın güclü dalğalara tuş gəldiyini və dənizə sürükləndiyindən şübhələndiklərini bildiriblər.**

**Comodoro Rivadavia polis rəisi Cristian Ansaldo da açıqlamasında Barrianın rəsmi şəxsiyyətini təsdiqləmək üçün DNT testinin aparılacağını bildirib. Ansaldo, Barrianın qalıqları olan köpəkbalığının uzunluğunun təxminən 1,5 metr olduğunu bildirib. Dieqo Barrianın həyat yoldaşı Virciniya Brugger sosial media hesabında ərinin qalıqlarının tapıldığını təsdiqləyərək "Ürəyim səninlə getdi. Səni sonsuza qədər sevəcəyəm", - deyə qeyd buraxıb.**

## Kahramanmaraşda axund uşaqları sevindirdi

### Keçmiş imamının addımı sosial şəbəkələrdə heyranlıqla qarşılanıb



**Türkiyədə baş verən Kahramanmaraş mərkəzli dəhşətli zəlzələ bütün dünyanı sarsıdıb. On minlərlə insan həlak olub, evsiz qalıb, xeyli sayda uşaqlar valideynlərini itirib. Belə bir vəziyyətdə hər kəs həmin ərazinin əhalisinə əlindən gəldiyi qədər təsəlli olmağa çalışır. Big.az bildirir ki, zəlzələ bölgəsindəki Abdülhamid Han məscidinin keçmiş imamının addımı sosial şəbəkələrdə heyranlıqla qarşılanıb. Belə ki, Ömer Faruk Hoca kimi tanınan axund zəlzələ bölgəsindəki uşaqlar üçün səsucaldıcı ilə "Ali Babanın çiftliği" mahnısını oxuyub. İzləyicilər uşaqları sevindirmək üçün atılan bu addımı təqdir edərək təşəkkür bildiriblər. Bir çoxları Faruk Hocanın qəlbinin gözəlliyinə heyran olduqlarını və kövrəldiklərini etiraf ediblər.**



# Dünyanın ən qədim mağara sənəti...

### Tapılan mağara rəsmlərindən bəziləri təxminən 65 min il əvvələ aiddir

**Yaradıcılıq və sənət əsərləri yaratmaq həmişə insan təbiətinin bir hissəsi olub və araşdırmalar bizi mağara sənətinin yaradıcılığı ifadə etməyin ilk yollarından biri olduğuna inandırıb. Dünyadakı ən qədim mağara sənətinin nə olduğunu dəqiq söyləmək çətindir, çünki biz hələ də hər gün yeni şeylər kəşf edirik.**

Texnologiya inkişaf etdikcə biz mürəkkəb piqmentləri və ətraf ərazini təhlil edə bilirik ki, mağara rəsminin neçə yaşı ola biləcəyinə dair daha dəqiq proqnozlar əldə edək. Son illərdə texnologiya inkişaf etdikcə tədqiqatçılar mağara sənəti nümunələrini tapmaq üçün bütün dünyada mağara şəbəkələrini daha dərindən araşdıra bilirlər. Asiyadan Avropaya qədər dağların altında yerləşən və cəngəlliklərdə gizlənmiş gizli mağara şəbəkələrində bir çox parçalar tapılıb, lakin ilk olaraq hansı rəsmin çəkildiyini dəqiqləşdirmək çətindir.Təkcə Avropada 400 tanınmış mağara rəsm sahəsi var.

Azərtac "The Fact Site"a istinadla xəbər verir ki, dünyanın ən qədim və məşhur mağara sənəti İspaniyanın şimalındakı Altamira mağarasındadır. Tapılan mağara rəsmlərindən bəziləri təxminən 65 min il əvvələ aiddir və" Homo sapiens" deyil, Neandertallar tərəfindən çəkildiyi ehtimal olunur. Bu xüsusi təsvirlər XIX əsrdə Marselinyo Sanz de Sautuola tərəfindən kəşf edilib. Mağara sənətinə dünyanın hər yerində rast gəlmək olar, çünki bütün insanların yaradıcı tərəfi, hekayə danışmaq və ya sənədləşdirmək istəyi var. Mağara sənətləri, - istər 65 min il, istərsə də cəmi 14 min il əvvələ aid olsun, - bizə bir ərazinin və ya irqin tarixini öyrənməyə kömək edə bilər.

*Qeyd edək ki, hələ də kəşf edilməkdə olan başqa əsərlərin mövcudluğuna baxmayaraq, İspaniyada tapılan mağara sənəti dünyada aşkarlanmış ən qədim mağara sənəti hesab edilir.*

## Ebru Yaşar o ataya ev bağışladı



**Kahramanmaraşda dağıntılar altında qalan qızının əlini buraxmayan Mesut Hançeri adlı şəxsə türkiyəli müğənni Ebru Yaşar yardım edib.**

Bizim media xəbər verir ki, sənətçi həyat yoldaşı Necat Gülserenlə birlikdə həmin şəxsə təmirli və əşyalı ev bağışlayıb.

Bununla bağlı Ebru sosial şəbəkə hesabında məlumat yayıb.

## Yenə çinlilər...

### "Möcüzəli öpüşmə cihazı" yaradıldı




**Çinlilər bunu da etdi. Çinin yeni icadı bir-birindən uzaqda olan sevgililərin öpüşməsini təmin edəcək cihazdır.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, bu cihaz bir başqasının dodaq hərarətini və hərəkətlərini qarşıdakı insana çatdırır. Çinlilər bunu "möcüzəli öpüşmə cihazı" adlandırıb. Cihazdan istifadə edənlər sanki sevgilisi yanındaymış və onu reallıqda öpür kimi hiss edir. Cihazın qiyməti 260 Çin yuanı - 700 TL-dir. Yeni cihaza sosial şəbəkədə təpki göstərənlər də olub. Etiraz edənlər cihaza süni, silikon dodaqların yerləşdirilməsini aldadıcı effekt adlandırır və bununla insanların hissləriylə oynayaraq gəlir əldə edildiyini bildirirlər. Deyilənə görə, cihaz xüsusi vasitə ilə bir insanın öpüşlərini digər birisinə çatdırmaq üçün tərəflər arasında mobil əlaqə yaradır. Bunun üçün hər iki tərəf eyni anda mobil telefonunu yükləmə cihazına bağlamalıdır. Çinin "Taobao" onlayn platforması üzərindən hər ay 100 ədəd satılır. Cihazın Çinin şərqindəki Şanqzu Texniki Universiteti tələbələri tərəfindən icad edildiyi bildirilib.

**Məlahət**

## Taxtına qayıtdı

### İlon Mask yenidən dünyanın ən varlı insanı olub



**"Tesla" və "SpaceX" kompaniyalarının, həmçinin tviter sosial şəbəkəsinin sahibi İlon Mask yenidən dünyanın ən varlı insanı olub.**

Bloomberg agentliyi xəbər verir ki, İlon Mask reytinqin ilk pilləsində müvəqqəti qərarlaşan LVMH (Louis Vuitton Moet Hennessy) kompaniyalar qrupunun prezidenti Bernar Arnonu qabaqlayaraq dünyanın ən varlı insanı titulunu özünə qaytarıb.

Cari ildə "Tesla Inc" aksiyalarının 70 faiz bahalaşması amerikalı sahibkarın varidatının artmasına səbəb olub. Kompaniya, həmçinin bəzi modellərin qiymətinin ucuzlaşması səbəbindən elektromobillərə tələbatın artmasından da qazanclı çıxıb.

Bloomberg agentliyinin reytinqinə əsasən, İlon Maskın varidatı 187,1 milyard dollar həcmində qiymətləndirilir. Onun ən yaxın izləyicisi Bernar Arnonun vəsaiti 185,3 milyard dollardır.

İlon Mask kapitalı 200 milyard dolları keçən ilk şəxs kimi tarixə düşüb. Amerikalı milyarder ötən ilin avqustundan dekabr ayına qədər "Tesla" kompaniyasının 11,6 milyon aksiyasını adları açıqlanmayan xeyriyyə təşkilatlarına verib.